

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 31 (24.466)

16 avqust 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Xalqın sevdiyi Prezident, xalqını və dövlətini sevən LİDER



## Prezident İlham ƏLİYEV:

*“Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm.”*

Azərbaycan Respublikası indi dünyanın inkişaf etmiş dövlətləri sırasındadır. İstər siyasi imicinə görə, istər iqtisadi inkişafına görə Azərbaycan ehtiramla əhatələnən dövlətlərdən biridir. Buna görə dünya siyasətçiləri də, xalq da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə böyük ehtiram göstərir. Ətrafında sıx birləşən xalq Prezidentini sevir, Prezidentinə inanır, güvənir. O lider xoşbəxtdir ki, əməlləri ilə xalqın və dövlətin məhəbbətini qazana bilir. Xalq da ən çətin vəziyyətlərdə öz liderinə güvənir, taleyini ona etibar edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhz belə bir liderdir. Dünyanın tarazlığının pozulduğu bir zamanda tək öz ölkəsində deyil, dünyanın hər tərəfindən baxanda da nəhəng görünən, əzəməti ilə seçilən Qalib Lider!

Ulu Öndər Heydər Əliyev yolunun uğurlu davamı ilə tarixi Zəfərinə, suverenliyinin tam bərpasına qovuşan Azərbaycan indi daha böyük hədəflərə doğru addımlayır. Bu gün adı dünya miqyasında güclü ölkələr sırasında çəkilən Azərbaycanın nüfuzu getdikcə daha da artır. Bunun da başlıca səbəbi ölkəmizin lideri, Prezident İlham Əliyevin tam müstəqil xarici siyasət yürütməsi, sözünə sadiq lider olmasıdır. Bu gün Prezident İlham Əliyev təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, dünya miqyasında tanınan siyasətçidir.

***“Bizim sözümüz imzamız qədər keçərlidir”***, – deyən Prezident İlham Əliyevin müəllifliyi ilə Azərbaycanın çağdaş tarixinin şanlı səhifələri yazılır. Ulu Öndərimizin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun xalqına, dövlətinə necə bağlı lider olduğu bir daha aydın görünür.

Azərbaycan özünün böyük bir intibah, inkişaf dövrünü yaşamaqdadır, cəmiyyət həyatının bütün əsas sahələrində mühüm dəyişikliklər baş verir. Bu dəyişikliklərin, uğurlarla zəngin inkişafın müəllifi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir. Doğru zamanda doğru qərarlar verən, real hədəflər seçən, önəmli strateji dəyişikliklərə gətirib çıxaran ideya və planların müəllifi kimi çıxış edən Azərbaycan Prezidenti həm də islahatçı bir lider olaraq çağdaş tariximizin yaradılmasında misilsiz xidmətlər göstərir.

İndi müstəqil Azərbaycan Prezident İlham Əliyevin liderliyi ilə daha xoşbəxt gələcəyinə doğru inamla irəliləməkdədir. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, Azərbaycan sabitlik diyarı, böyük investisiyalar məkanı, iqtisadi möcüzələr ölkəsi kimi tanınır. Xalqın rəhbəri olaraq dövlət başçısı ötən müddət ərzində Azərbaycanı lider ölkələr cərgəsinə çıxarmışdır.

Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının yüksək dinamizmlə davam etdirilməsi, ictimai həyatın bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması Azərbaycanı uğurlu inkişaf yoluna çıxarmış, Cənubi Qafqaz bölgəsində həyata keçirilən qlobal enerji-kommunikasiya layihələrinin əsas təminatçısına çevirmiş, beynəlxalq əlaqələrinə ciddi impulslar vermişdir. Ulu Öndərimizin ***“Mən ona özüm qədər inanır və gələcəyinə böyük ümidlər bəsləyirəm”***, – deməklə cəmiyyətə özünün layiqli siyasi varisi kimi təqdim etdiyi Prezident İlham Əliyev ölkəyə rəhbərliyi dövründə respublikamızın qarşısında duran prioritet vəzifələri dəqiq müəyyənləşdirməklə hər bir vətəndaşın maraq və mənafeyinə hesablanan çevik siyasət həyata keçirmiş, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqeyinin möhkəmləndirilməsi üçün səylə çalışmışdır.

Səhifə ⇨ 2



# Xalqın sevdiyi Prezident, xalqını və dövlətini sevən LİDER

(əvvəli 1-ci səhifədə)

***"Xalq prezidenti seçir, prezident də xalqın qarşısında cavab verməlidir. Əgər xalq onun fəaliyyətini dəstəkləyirsə, ona inanırsa, bu ən böyük mükafatdır"*** – bu sözlərin müəllifi Prezident İlham Əliyevin xarizmasına olan inam da məhz onun idarəetmə prinsiplərinə yanaşmasından, hakimiyyəti yalnız vətəndaşlara xidmət vasitəsi kimi dəyərləndirməsindən irəli gəlir. Prezidentimizin liberal baxışlar sistemi, xarakterinə xas olan humanistlik və xeyirxahlıq cizgiləri, eləcə də zəruri məqamda yüksək qətiyyət, prinsipiallıq göstərmək əzmi onun qısa müddətdə cəmiyyətdə Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı kimi dəstəklənməsini təmin etmişdir. ***"Qarşımda çoxlu vəzifələr var, çoxlu işlər görmək əzmindəyəm. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam"*** – bu sözləri cənab İlham Əliyev prezidentliyinin ilk günlərində bəyan etmişdi. Bu günün ən tutarlı cavabı isə ötən müddət ərzində həyata keçirilmiş işlərin miqyası, əhəmiyyəti və bir də Azərbaycan xalqının öz Prezidentinə bəslədiyi səmimi məhəbbətdə ifadə olunmuş minnətdarlıq duyğusudur.

Prezident İlham Əliyev bütün sahələrdə Heydər Əliyev yoluna sədaqətini nümayiş etdirir. O, Heydər Əliyev kimi xalqın problemlərini xalqın özündən öyrənməyə daha çox üstünlük verir. Ona görə də xalqla birbaşa təmasda olur, yerlərdə sıravi vətəndaşlarla daim görüşlər keçirir, onlarla səmimi söhbətlər edərək problemlərinin həlli istiqamətində qərarlar qəbul edir. Ölkə başçısı müdrik dövlət adamlarına xas olan qabiliyyətlə hər kəslə dil tapmağı, Prezident-vətəndaş arasındakı səddi aradan götürməyi bacarır. Onun vətəndaşların problemlərinə həssas yanaşdığını son dövrlər imzaladığı sərəncamlar da açıq-aydın göstərir. Hər bir vətəndaşı diqqətlə dinləyən, onların problemlərinin həlli üçün lazımi göstərişlər verən Prezident İlham Əliyevin vətəndaşlarla görüşlərində qaldırılan elə bir problem yoxdur ki, öz həllini tapmasın.

***"Prezident o vaxt sevinir ki, onun xalqı sevinir"***, – deyən Prezident İlham Əliyevin bu sözləri dövlət başçısının xalqa yanaşmasının ən mükəmməl göstəricisi, onun mənsub olduğu xalqa, lideri olduğu cəmiyyətə həssas və yüksək diqqətlə, böyük qayğıkeşliklə yanaşmasının daha bir bariz sübutudur. Bunun nəticəsidir ki, müasir Azərbaycanın əsas xarakterik xüsusiyyətlərindən olan sürətli inkişafın ən mühüm cəhətlərindən biri yaşanan tərəqqinin hər bir ölkə vətəndaşının, hər ailənin həyatında öz əksini tapmasıdır.

Bu gün sadə vətəndaşın qayğıları ilə yaşayan, onu duyan və həlli istiqamətində konkret addımlar atan ölkə Prezidenti bununla həm də insanlar tərəfindən alqışlanaraq təqdir olunan gözəl bir nümunəyə hərzamankı sadiqliyini nümayiş etdirir. Vətəndaş görür ki, onun səsini daim eşidəcək, hüquqlarını müdafiə edəcək Prezidenti var. Daim xalqın xidmətində olan dövlət başçısı hər zaman lideri olduğu xalqa arxalandığını böyük qürur hissi ilə bəyan edir və bildirir ki, onun əsas missiyası mənsub olduğu xalqa xidmət etməkdir. Bütün işlərində xalqına arxalanan dövlət başçısı bundan sonra da əsas işinin məhz xalqına xidmət etməkdən ibarət olacağını qürur hissi ilə vurğulayır və göstərilən təşəbbüslərin xalq tərəfindən dəstəklənməsi sayəsində Azərbaycanda belə nəhəng miqyaslı işlərin görüldüyünə diqqət çəkir. Bu həm də Prezident cənab İlham Əliyevin xalqına, Azərbaycan vətəndaşına nə dərəcədə böyük dəyər verməsinin real təzahürüdür.

Hər bir Azərbaycan vətəndaşının Prezidenti olaraq cənab İlham Əliyev ölkənin müxtəlif bölgələrinə səfərlərində insanlarla təmasa daim xüsusi önəm verir. Bu görüşlərdə sadə insanların hansı problemlərlə üzləşməsi də dövlət başçısını daim yaxından maraqlandırır. Problemlər olduğu təqdirdə onun elə yerindəcə həllinə dair Prezident tərəfindən müvafiq göstərişlərin verilməsi artıq xoş bir ənənə halını almışdır. Bu da, öz növbəsində, Prezidentə cəmiyyətdə duyulan inamı, etimadı daha da artırır.

Prezident-xalq birliyi uğurlarımızın əsası kimi daim vurğulanır. Bu fikir beynəlxalq ekspertlər tərəfindən də qeyd olunur ki, Azərbaycan xalqının Prezidentinə inamı sonsuzdur. Bu inamın olduğu ölkədə heç bir narazılıqdan söhbət gedə bilməz. Təbii ki, bu inamı dövlətimizin başçısı İlham Əliyev uğurlu siyasəti, liderlik keyfiyyətləri ilə qazanıb. Hər bir addımda özünə diqqətin və qayğının şahidi olan xalqda Prezidentinə inam, etimad, sevgi böyükdür. Prezident İlham Əliyev jurnalistlərə ilk müsahibəsində ***"Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm"*** söyləyərək onu da bildirmişdir ki, mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss etsin. Daim xalqına arxalanan, xalqdan güc alan Prezident İlham Əliyevə milyonların sevgisi şəksizdir. Bunu ölkədə xalq-Prezident birliyinin sarsılmazlığı, xalqın inamı və etimadı təsdiqləyir.

Qədirbilən xalqımız müstəqilliyimizin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin milli dövlətçilik ideyalarını əsas tutaraq müstəqillik yolu ilə inamla daha xoş gələcəyə doğru irəliləyir. Bu irsi uğurla davam etdirən Prezident İlham Əliyev Ulu Öndərin ideyalarını yeni dövrün çağırışlarına uyğunlaşdıraraq Azərbaycanı dünyanın diqqət mərkəzinə çıxaran güclü bir lider oldu. Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və uzaqgörənliyi ilə Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi ədaləti bərpa etdi. Bu müharibə yalnız torpaqların işğaldan azad edilməsi deyildi. Bu həm də Azərbaycanın milli kimliyinin, qürurunun və suverenliyinin dünyaya sübutu idi. Xalq-dövlət-ordu birliyi, Ali Baş Komandanın müdrik qərarları ilə əsl qəhrəmanlıq dastanı yazdı. Bu zəfər Azərbaycan xalqının gücünü, iradəsini və əyilməzliyini bütün dünyaya nümayiş etdirdi.

Bu şərəfli yolun mühüm iştirakçılarından biri də Birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Onun fəaliyyəti ölkənin sosial, mədəni və humanitar sahələrinin inkişafına əvəzsiz töhfələr verir. Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun rəhbəri kimi təhsil, səhiyyə və mədəniyyət sahələrində həyata keçirdiyi layihələrlə Azərbaycanın dünya miqyasında tanınmasına xidmət edir. Onun təşəbbüsləri sayəsində Azərbaycanın tarixi abidələri bərpa edilir, milli mədəniyyətimiz qorunur və beynəlxalq səviyyədə təbliğ olunur. Mehriban xanımın apardığı bu işlər Azərbaycanın tolerantlıq və humanizm dəyərlərini dünyaya nümayiş etdirir.

Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində ölkəmiz işğaldan azad edilmiş torpaqlarımızda böyük quruculuq və bərpa işləri aparır. Qarabağ və Şərqi Zəngəzurda müasir şəhərlər salınır, yeni infrastruktur qurulur, tariximizin və mədəniyyətimizin izləri yenidən dirçəlir. Bu quruculuq həm də Azərbaycanın güclü, qüdrətli və yenilməz bir dövlət olduğunu sübut edir.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanından xalqa müraciətində Şuşa şəhərinin işğaldan azad olunduğunu elan etdi, Dövlət Bayrağını Xankəndi şəhərində dalğalandırdı. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bu fakt həm də milli dövlətçilik tarixində sovet ittifaqının dağılmasından sonra ərazi bütövlüyümüzün bərpası, Qələbəmizin tam təmin və rəsmi təsdiq olunması kimi yaddaşımıza həkk edildi.

Ata nəsihətini əsl oğul ləyaqəti ilə yerinə yetirən Prezident İlham Əliyev çağdaş Azərbaycanın tarixinə öz adını hər zaman parlayacaq qızıl hərflərlə həkk etməyi bacardı. Ona görə də 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə dastanı həm də böyük Zəfər salnaməsidir.

Bu gün Azərbaycan bütün dünya dövlətləri tərəfindən Cənubi Qafqazın lider dövləti olaraq qəbul olunur. Azərbaycan sülhün əldə olunmasının, habelə regionda yeni quruculuq dövrünün başlanmasının vaxtı olduğunu bütün ikitərəfli və çoxtərəfli beynəlxalq görüşlərdə mövqe kimi hər zaman nümayiş etdirib. Azərbaycan Prezidenti İlham Əliyev nəyi, necə və nə vaxt edəcəyini bilən liderdir. Dövlət başçısı perspektivləri görür, hər bir qərarını dəqiq hesablayır və ölkənin milli maraqlarını qətiyyətlə müdafiə edir. Prezident İlham Əliyev bu məqsədə ən çətin yolla, güclü beynəlxalq təzyiqlərə, bəzi dövlətlərin və təşkilatların müqavimətinə baxmayaraq, heç bir güzəştə getmədən çatdı. Bu prosesdə vasitəçi kimi çıxış edən Amerika Birləşmiş Ştatları Azərbaycanın Cənubi Qafqazda siyasi və iqtisadi sabitliyi təmin etmə səylərini, beləliklə dünya siyasi arxitekturasının tamamlanması işinə dəstəyini yüksək qiymətləndirir.

Vaşinqtonda imzalanmış sənədlər Azərbaycanın diplomatik qələbəsini təsdiqləməklə yanaşı, ölkəmizin regional və qlobal səviyyədə artan rolunu bir daha nümayiş etdirdi. Bu diplomatik uğurları ilə Prezident İlham Əliyev sübut etdi ki, o, təkcə müharibənin qalibi deyil, həm də sülhün müəllifidir. Prezident İlham Əiyevin də dediyi kimi: ***"Bu gün, həqiqətən də, tarixi bir gündür. Bu gün biz Cənubi Qafqazda sülhü bərqərar edirik. Bu, nəinki bizim bölgəmiz, eyni zamanda bütün dünya üçün böyük bir imkandır".***

Artıq dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı qürur duyur ki, onun Azərbaycan adlı qalib dövləti, Şuşada, Laçında, bütöv Azərbaycanın başı üstə məğrurluqla dalğalanan bayrağı, Vətəni üçün keçilməz sədləri aşıb ona can qurban edən igid oğulları və hər bir azərbaycanlının Prezidenti olan Müzəffər Sərkərdəsi, xalqın sevdiyi və xalqını sevən müdrik bir rəhbər, qətiyyətli bir Lider var!

**Məhəbbət MİRZƏYEVA**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

# Siyasi qətiyyət, iqtisadi müstəqillik

## *Güclü iqtisadiyyat: Azərbaycanın inkişaf və tərəqqi modeli*



***Azərbaycan iqtisadiyyatının dirçəldilməsi üçün mühüm strategiyaların əsasını yaradan Ümummilli Liderimiz Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" ideyası bu gün beynəlxalq miqyasda qəbul olunan, təsdiqini tapan vahid inkişaf modelinə çevrilib. Dünyada müasir çağırışlara uyğun baş verən ictimai-siyasi proseslər, yeni, innovativ texnologiyaların istehsalata tətbiqi ölkələr arasında gün ötdükcə iqtisadi rəqabəti xeyli artırır, dayanıqlıq, davamlılıq prinsiplərini daha qabarıq şəkildə ön plana çıxır. Uğurla reallaşdırılan siyasətin, diplomatiyanın nəticəsidir ki, respublikamız nəinki regionda, Cənubi Qafqazda, hətta qitə, materik səviyyəsində öz iqtisadi müstəqilliyi ilə tanınan, etibar qazanan tərəfdaş statusuna malik olub. İqtisadi qüdrətimizin ən bariz forması özünü bu gün qalib, müzəffər olan güclü ordumuzun, yenidən qurulan Qarabağımızın, Şərqi Zəngəzurumuzun, beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyinə layiq görülməyimizin və ən nəhayət, avqustun 8-də Vaşinqtonda təntənəsini yaşayan diplomatiyamızın timsalında göstərir, isbatlayır.***

Azərbaycan o ölkələrdəndir ki, uçurumun kənarına yuvarlanan, yoxsul respublikadan dünyanın inkişaf etmiş ölkələri ilə fəal iqtisadi münasibətlər quran, regional və beynəlxalq səviyyədə sözünü deməyə, təsirini göstərməyə müvəffəq olan, müstəqil siyasət yürüdən respublikaya çevrilməyi bacarıb. Təkcə bir fakta diqqəti çəkmək yetərlidir ki, 30 ildən artıqdır, davam edən siyasi yolun, iqtisadi yüksəlişin Azərbaycanı necə müqayisəedilməz səviyyəyə qaldırdığı aydın olsun. Belə ki, reallaşdırılan beynəlxalq əhəmiyyətli iqtisadi, ticari əməkdaşlıqların, icra olunan layihələrin nəticəsidir ki, bu gün ölkəmizin xarici borcu ÜDM-in 6,9 faizini təşkil edir. Bəli, cəmi 6,9 faiz. Halbuki əksər inkişaf etmiş ölkələrdə bu, 100 faizdən də çoxdur. Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunda jurnalistin sualına cavab olaraq respublikamızın qısa zamanda əldə etdiyi bu böyük nailiyyəti yüksək qiymətləndirib. Sitat: ***"Güclü ölkəni, güclü iqtisadiyyatı qurduq. Xarici borcumuzu ÜDM-in 6,9 faizinə qədər azaltdıq. Bizi tənqid edənlərin xarici borcu ÜDM-in 100 faizindən çoxdur. Biz yoxsulluğu 49 faizdən 5 faizə endirdik. Mən Fransada yoxsulluq haqqında danışmaq istəmirəm. Məncə, təxminən, 16 faizdir. Bax beləcə oldu. Biz öz həyatımızı yaşayırıq, öz iradəmizi təlqin etmirik".***

Azərbaycan iqtisadiyyatının gücü, dayanıqlığı həm də onun çoxşaxəliliyindədir, yəni inkişaf istiqamətlərinin bir-birindən asılı olmayan sahələr üzərindən təmin olunmasındadır. Eyni zamanda da zəncirvari, balanslı siyasətin aparılması, bir sahədən əldə olunan gəlirin səmərəli şəkildə digərinə yatırılması, beləliklə, həm də sərmayə cazibədarlığının artırılması da reallaşdırılan bu iqtisadi modelin əsas xüsusiyyətləri sırasındadır. Təsadüfi deyildir ki, tarixi Zəfərdən sonra yaranan yeni reallıqların fonunda 2021-ci il fevralın 2-də təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkənin inkişafında əsas götürülən 5 milli prioritetdən birincisi də məhz "dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" adlı prioritetdir. Həmin prioritetin icrası ilə əlaqədar son illərdə aparılan iqtisadi islahatlar, əlverişli biznes mühitinin formalaşdırılması yeni sənaye və istehsal sahələrinin yaradılmasına səbəb olub ki, bununla da dövlət siyasətinin əsas məqsədi sayılan neftdən asılılıq artıq tamamilə aradan qaldırılmaq üzrədir.

Ötən ilin makroiqtisadi göstəriciləri də bu sahədə əhəmiyyətli irəliləyişdən xəbər verir. Dövlət Statistika Komitəsinin yaydığı məlumata əsasən 2024-cü ildə ölkədə 126,3 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Bu göstərici əvvəlki illə müqayisədə 4,1 faiz  və ya 3,3 milyard manat artıb. 2025-ci ilin yanvar-iyun aylarında isə 62078,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz çox ümumi daxili məhsul istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyəri 3,1 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 3,9 faiz artıb. ÜDM istehsalının 34,9 faizi sənaye, 10,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,3 faizi tikinti, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 21,1 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,0 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 6066,1 manata bərabər olub.

Ölkədə həyata keçirilən düzgün, balanslı iqtisadi siyasət nəticəsində diversifikasiya iqtisadiyyat, biznes və investisiya sahələrində əsas strategiyalardan birinə çevrilib ki, bu da özünü təkcə bir və yaxud iki ildə deyil, 10, 20 illik nəticələrdə göstərir. Belə ki, son 10 ildə Azərbaycanda ümumi daxili məhsul istehsalı 72 milyard manat və ya 2,3 dəfə artıb. Müqayisə üçün bildirək ki, 2015-ci ildə Azərbaycanda ümumi daxili məhsul istehsalının həcmi 54,3 milyard manat idi. ÜDM istehsalının 35,9 faizi sənaye, 10,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,7 faizi tikinti, 5,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 19,9 faizi digər sahələrin payına düşüb. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,8 faizini təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyəri 0,3, qeyri neft-qaz sektorunda isə 6,2 faiz artıb. Beləliklə, qeyri-neft sektorunun gəlir, dəyər baxımından neft sektorunu bu dərəcədə üstələməsi və artım tempi ölkəmizdə aparılan "yaşıl iqtisadiyyat"a keçid, sənayeləşmə, aqraryönümlü siyasətin uğurlu nəticələrə yol açdığını göstərir...

Qürur duyulası haldır ki, Avropa ilə Asiya arasındakı ticarət əlaqələrində mühüm tranzit mərkəzi sayılan, qoca qitənin enerji təminatçısı Azərbaycan bu gün istər MDB məkanında, regional müstəvidə, istərsə də beynəlxalq səviyyədə kifayət qədər strateji, etibarlı tərəfdaşa çevrilib. Respublikamızın ABŞ, Çin kimi dünya nəhəngləri ilə birgə strateji tərəfdaşlıq yoluna qədəm qoyması, mühüm əməkdaşlıqlara imza atması bu baxımdan təsadüfi deyil, praqmatik yanaşma, prinsipial mövqe və ən əsası iqtisadi müstəqilliyin, siyasi qətiyyətin təntənəsidir. Məhz sahib olduğumuz bu iqtisadi müstəqillik, siyasi qətiyyət bizi 5 il əvvəl müharibə meydanında, 5 il sonra isə sülh arenasında qalib etdi. Azərbaycan diplomatiyasının zəfər salnaməsi sayılan Vaşinqton görüşündən sonra Azərbaycanın media nümayəndələrinə müsahibəsində Prezident İlham Əliyevin də dediyi kimi: ***"Odur ki, bugünkü gün, o cümlədən buna görə tarixi gün sayıla bilər. Həm Azərbaycan-Amerika ikitərəfli münasibətlərinin inkişafında, həm Azərbaycan-Ermənistan normallaşması işində atılan addımlar, Birgə Bəyannamənin qəbul edilməsi, imzalanması və dünyanın ən qüdrətli dövləti olan Amerikanın Prezidentinin buna dəstəyi və şahidlik etməsi bir daha bu Bəyannamənin önəmini göstərir. Mən bu gün mətbuat konfransında da qeyd etdim, biz dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində, dünyanın ən qüdrətli Prezidentinin iştirakı ilə bunu etdik. Əlbəttə, hər kəs başa düşür ki, bunun nə qədər böyük əhəmiyyəti var, həm ölkəmiz üçün, həm bölgə üçün, həm geniş coğrafiya üçün. Biz haqq-ədaləti müharibə yolu ilə bərpa etdik. İndi isə buna siyasi müstəvidə də nöqtəni qoyduq".***

**Nail ƏSGƏROV**

## Kənd təsərrüfatı naziri Naxçıvanda səfərdədir



Avqustun 14-də Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov Naxçıvana səfərə gəlib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli və nazir Məcnun Məmmədov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucaldılan abidəsi önünə tər güllər qoyub, xatirəsini ehtiramla yad ediblər.

Kənd təsərrüfatı naziri səfər çərçivəsində avqustun 15-də muxtar respublikada vətəndaşları qəbul edib.



# Naxçıvanın yeni həyatı başlanır

*Cənab İlham Əliyev 22 il əvvəl dilə gətirdiyi bütün sözləri, verdiyi bütün ümidləri bu illərdə Ona inanan, ardınca addım-addım milli məqsədlərə doğru irəliləyən milyonlarla vətəndaşımızla birgə reallığa çevirdi.*



**Arzu ABDULLAYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent***

Azərbaycan Prezidenti deyirdi: ***"Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik".*** Bu gün Azərbaycan müasir dünyamızın ən zəngin, qüdrətli dövlətləri sırasındadır və dayanıqlı inkişafı ilə öz mövqeyini getdikcə yüksəldir. Bu həqiqət Ağ evin binasından daha aydın göründü.

Dövlətimizin Lideri belə bir zərurəti diqqətə çatdırırdı: ***"Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır".*** Azərbaycan Prezidenti düşüncələrindəki belə bir ordunu qurmağı bacardı. Azərbaycan Ordusunu hərbi qüdrətinə, maddi-texniki təchizatına, döyüş ruhuna görə dünyanın ən güclü orduları cərgəsində qərarlaşdırdı. Dövlətimizin istiqlalı, bütövlüyü, suverenliyi, milli maraqları, xalqımızın qürur və ləyaqəti naminə bu ordunun sıralarında göz qırpmadan canını fəda etməyə hazır olan vətənpərvər bir nəsil yetişdirdi.

Ağ evdə Müzəffər Ali Baş Komandanın məğrur və qalib görkəmi bu hədəfin necə reallaşdığını ən xırda çalarınadək bütün dünyaya bəyan etdi.

Azərbaycan Prezidenti əminliyini ifadə edirdi ki, ***"Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".*** Cənab İlham Əliyev Ulu Öndərin müəyyən etdiyi inkişaf kursunu davam etdirərək onun formalaşdırdığı ilkin əsaslar üzərində Azərbaycanı qısa zamanda sosial-iqtisadi inkişaf göstəricilərinə görə regionun və dünyanın lider ölkələrindən biri pilləsinə yüksəltdi. Ölkəmizdə həyat standartlarını dəyişən, respublikamızı başdan-başa inkişaf və abadlıq meydanına çevirən bu nailiyyətlər ordu quruculuğu üçün də geniş imkanlar açdı. Eyni zamanda güclənən beynəlxalq nüfuzu, geostrateji proseslərdə oynadığı əhəmiyyətli rol, etibarlı tərəfdaş kimi qura bildiyi strateji əlaqələr ordumuzun maddi-texniki təchizatının ən müasir standartlar əsasında aparılmasına şərait yaratdı.

Ağ evdə cənab İlham Əliyevə dünya lideri D.Trampın səmimi dost münasibəti, baş nazir N.Paşinyanın isə qibtə ilə baxması bu ali məqsədin Şuşa, Xankəndi zirvəsinə çatmasını nümayiş etdirdi.

Hələ Vətən müharibəsindəki Zəfərimizin ilk rəsmi təsdiqi – 10 noyabr Bəyanatında Azərbaycan Liderinin sülh gündəlinə daxil etməyə müyəssər olduğu "Zəngəzur dəhlizi" layihəsi də bu missiyanın son dərəcə əhəmiyyətli parçasıdır.

Azərbaycan Prezidentinin dahiyanə gedişlərindən olan Zəngəzur dəhlizi təşəbbüsü ilə ilk vaxtlarda Laçın yoluna qarşı əks balansın yaradılması da nəzərdə tutulurdu. Ermənistanda isə sadəlövhcəsinə düşünürdülər ki, Azərbaycan Qarabağda öz məqsədlərinə tam nail olandan sonra Zəngəzur dəhlizi ilə bağlı mövqeyindən geri çəkiləcək.

Rəsmi İrəvanın, təxminən, 5 ilə qədər müddətdə məsələni yubatması, "Sülh kəsişməsi" adlı utopik layihələrlə baş qatmağa çalışması da bu təşəbbüsü tədricən gündəlikdən çıxarmaq məqsədi güdürdü. Amma Azərbaycan Lideri yenə geri addım atmadı, bu məsələni daim gündəmdə saxladı.

Nəhayət, ABŞ-də imzalanmış Birgə Bəyannamə ilə ən böyük məqsədlərimizdən birinə – Zəngəzur dəhlizinin açılmasına, Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına – Azərbaycandan Azərbaycana maneəsiz çıxışın təmin edilməsinə nail ola bildi.

Elmi-filoloji prinsiplərə əsaslansaq, əslində, bütün adlar şərti səciyyə daşıyır. Belə məqamlarda isə xüsusilə əhəmiyyət verilən məqam addan çox məhz mahiyyətdir. Kommunikasiya xətti "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (Trump Route for International Peace and Prosperity – TRIPP) adlandırılsa da, əslində, söhbətin mahiyyət etibarilə məhz Zəngəzur dəhlizindən – Azərbaycanın nail olmağa çalışdığı dəhlizdən getdiyi hər kəsə məlumdur.

Naxçıvan Muxtar Respublikasına maneəsiz çıxışın Ermənistanın suverenliyi çərçivəsində nəzərdə tutulması, dəhlizin idarəetməsinin ABŞ-də olması isə bir tərəfdən Azərbaycanın guya Zəngəzuru işğal edəcəyi iddiası ilə hay-küy salan ermənipərəstlərə, o cümlədən keçmiş Bayden administrasiyasına, "Human Rights Watch", "Freedom House", USAID kimi bədxah QHT-lərə, "Azadlıq Radiosu"na, digər tərəfdən isə Zəngəzur dəhlizi ilə bağlı hansısa "qırmızı xətlərdən" danışan məlum qonşularımıza ən tutarlı cavabdır.

Beləliklə, cənab İlham Əliyev əsrlərdən miras qalmış daha bir problemi aradan qaldırdı: uzun illərdən bəri blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə maneəsiz keçidi tezliklə təmin ediləcək, Naxçıvan iqtisadi rayonu yeni bir strateji inkişaf dönəminə daxil olacaq, blokada vəziyyətinin yaratdığı bütün sosial-iqtisadi çətinliklər keçmişdə qalacaq.

1990-cı ilin 22 iyulunda Ulu Öndər Heydər Əliyevin Naxçıvana qayıtması ilə bu bölgə işğaldan, səfalətdən xilas oldu, ən əsası isə Naxçıvanın timsalında Azərbaycanın müstəqilliyinin və dövlət quruculuğunun ilk modelləri böyük müdrikliklə hazırlandı və uğurla tətbiq olundu.

Azərbaycanın əsl müstəqillik və layiqli dövlət quruculuğu prosesi məhz Naxçıvandan başlandı. Bu proses, nəticə etibarilə, tarixin ən qüdrətli Azərbaycanı və Qarabağda, Şərqi Zəngəzurda Zəfər Bayrağımızın dalğalanması ilə təntənəsini yaşadı. Ulu Öndər Heydər Əliyevin və qüdrətli Lider İlham Əliyevin rəhbərlik etdikləri bu tarixi epoxalarda Naxçıvan məlum coğrafi vəziyyətinə görə daim strateji prioritetliyini qorudu.

Naxçıvana quru yolunun açılması razılaşması ilə sülh danışıqlarının son mərhələsi də yekunlaşdı və Prezident İlham Əliyev mütləq Zəfərini qazandı!








# Təbii sərvətlərimizdən səmərəli istifadə iqtisadiyyatımızın inkişafına xidmət edir

Muxtar respublikanın iqtisadi və ekoloji tarazlığının təmin edilməsində mühüm əhəmiyyətə malik “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda ətraf mühitin mühafizəsi, təbii sərvətlərin səmərəli istifadə və geoloji tədqiqatların müasir texnologiyalar əsasında aparılması əsas prioritetlərdən biri kimi müəyyən edilib. Təbii ki, bu prinsip geologiya və mədənçilik sahəsində həyata keçirilən hər bir layihədə rəhbər tutulur. Muxtar respublikada son iki il ərzində qeyri-filiz və inşaat materialları yataqlarının axtarışı, təftişi və qiymətləndirilməsi, yeraltı suların monitorinqi, qara, əlvan və nəcib metalların axtarışı, yenidən qiymətləndirilməsi üzrə çöl və kameral işlər görülüb, müxtəlif yataqlarda təftiş və yenidən qiymətləndirmə işləri aparılıb, eləcə də yeni yataqlar kəşf edilib.

Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədri Əli Vəliyevlə görüşüb həmsöhbət olduq. Müsahibimiz bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” geoloqlar qarşısında da mühüm vəzifələr qoymuşdur. Belə ki, agentlik tərəfindən Dövlət Proqramının 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planına müvafiq olaraq aşağıdakı layihələr üzrə geoloji işlər yerinə yetirilir. Bunlar sırasında filiz ehtiyatlarının qiymətləndirilməsi üçün beynəlxalq qiymətləndiricilərin dəvət edilməsi və investisiya üçün açılmasını qeyd etmək olar. Bu məqsədlə dövlət balansına alınmış filiz faydalı qazıntı yataqlarından maraqdoğuran potensiallı və geniş istifadə imkanlarına malik yataqların axtarışı, təftişi və yenidən qiymətləndirilməsi işlərinin “Parağaçay” və “Qapıcıq” molibden, “Gümüşlü” polimetal (qurğuşun və sink) yataqlarında beynəlxalq qiymətləndiricilərlə birlikdə araşdırmaların aparılması məqsədilə Türkiyə Respublikası Energetika və Təbii Sərvətlər Nazirliyinin Mədən Tədqiqat və Kəşfiyyat Baş İdarəsi (MTA) ilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi arasında əməkdaşlıq barədə razılığa gəlinib. 2024-cü ildən başlayaraq hər iki tərəfin mütəxəssislərindən ibarət işçi qrup dəfələrlə yataq ərazilərində olub, yerüstü araşdırmalar və tədqiqat işləri aparılıb, yataqlara aid mövcud arxiv materialları əldə edilib. Yataq sahələrində filizləşmənin dərinlikdə (300-500 metr) yayılma potensialının quyular vasitəsilə müəyyənləşdirilməsi məqsədilə işlərə başlanılmışdır. “Parağaçay” molibden yatağı sahəsində 5, “Qapıcıq” molibden yatağı sahəsində 2 və “Gümüşlü” polimetal yatağı sahəsində 3 geoloji kəşfiyyat quyusunun qazılması müəyyənləşdirilib. Hazırda Parağaçay sahəsində buruq-qazma işləri aparılır.

Əli Vəliyev qeyd etdi ki, filiz yataqlarının axtarışı və qiymətləndirilməsi məqsədilə Nəsirvaz polimetal (qurğuşun, sink, mis və sair) və Xalxal sərbəst mis, qızıl və sair yataqlarında yerüstü (axtarış marşrutları, xəndək və şurf dağ qazmaları ilə) və dərinlikdə (buruq quyuları ilə) geoloji axtarış işləri aparılır. Hazırda Sədərək-Şərur və Babək-Culfa rayonları ərazisində tikinti-inşaat materiallarına və gips xammalına axtarış və axtarış-qiymətləndirmə işləri həyata keçirilir. Həmçinin 2024-cü ildən başlayaraq muxtar respublika ərazisində ekzogen geoloji proseslərin (sürüşmələr, daş uçqunları, qar uçqunları, subasmalar, sellər və sair) öyrənilməsi, tədqiqi və monitorinq işləri görülür. 2023-2024-cü illərdə isə muxtar respublika ərazisində 298 mineral bulağın və dağətəyi ərazilərdə 79 su quyusunda yeraltı suların monitorinqi aparılıb. Muxtar respublika ərazisində geoloji-kəşfiyyat işləri davam etdirilir.



Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyəti sədrinin müavini İlkin Tahirov isə dedi ki, muxtar respublika ərazisində yerləşən “Parağaçay”, “Qapıcıq” və “Gümüşlü” yataqlarında beynəlxalq standartlara uyğun geoloji qiymətləndirmə işlərinin həyata keçirilməsi müvafiq Dövlət Proqramının istiqamətlərindən biridir. Əsas hədəf filiz yataqlarının geoloji potensialının obyektiv və beynəlxalq qəbul olunmuş metodologiyalara əsaslanaraq qiymətləndirməsidir. “Parağaçay”, “Qapıcıq” və “Gümüşlü” yataqların sahələrində filizləşmənin dərinlikdə izlənməsi və öyrənilməsi quyular vasitəsilə aparılacaqdır. Sözügedən yataqlarda 10 quyu qazılacaq, geoloji qiymətləndirmə işləri, ümumilikdə, 3800 poqonometr həcmində planlaşdırılan kəşfiyyat quyularında aparılacaqdır. Adıçəkilən idarənin əməkdaşları ilə birgə obyektlərə baxış keçirilib. Hər bir yataq üzrə geoloji xəritələr hazırlanıb, müvafiq topoqrafik planlar tərtib edilib.

Müsahibimiz bildirdi ki, qazılması nəzərdə tutulan quyuların yerləri geoloji əsaslandırmalar əsasında müəyyənləşdirilib. Layihə çərçivəsində istifadə olunacaq metodika beynəlxalq standartlara və qabaqcıl elmi-praktiki yanaşmalara əsaslanır. Məqsəd yüksək dəqiqlikli geoloji məlumat bazasının formalaşdırılmasıdır. Bu isə gələcəkdə yataqların səmərəli və elmi əsaslandırılmış istismarı üçün mühüm zəmin yaradacaq. Eyni zamanda yataqların geoloji xüsusiyyətlərinin daha dərindən öyrənilməsi ölkənin mədən sənayesinin inkişafına yeni imkanlar açacaq. MTA mütəxəssisləri tərəfindən aparılan qiymətləndirmələr nəticəsində yataqlar üzrə faydalı qazıntı ehtiyatları daha dəqiq və obyektiv şəkildə müəyyən ediləcək. Süxur nümunələrinin laborator təhlili beynəlxalq akkreditasiyalı laboratoriyalarda aparılacaq. Layihənin icrasında agentliyin mütəxəssisləri də iştirak edəcəklər. Muxtar respublikada görülən bu genişmiqyaslı işlər ölkənin geoloji bazasının zənginləşdirilməsinə və resurs potensialının reallaşdırılmasına əhəmiyyətli töhfə verəcək. Parağaçay yatağı ərazisində isə 3800 poqonometr buruq qazma işləri aparılaraq kern sınaqları götürülüb. Buruq quyularının qazılması davam etdirilir.

Yataqlarda aparılan geoloji işlər çərçivəsində qardaş Türkiyə Respublikasından dəvət olunmuş mütəxəssislərlə də görüşdük. Müsahibimiz, geoloq İhsan Gökal bildirdi: “Biz Türkiyədən, MTA (Maden Tetkik ve Arama) Baş İdarəsindən gəlmiş mütəxəssis heyəti olaraq burada fəaliyyət göstəririk. Bu sahədə görülən işlər qarşılıqlı şəkildə həyata keçirilir. Hazırda yataqlarda qazılmış buruq quyularından çıxarılan kern nümunələrinin araşdırılması işlərini yerinə yetiririk. Bu nümunələr üzərində aparılan işlərin düzgün və sistemli şəkildə icrası bizim üçün prioritet məsələdir. Çıxarılan nümunələrin determinasiya prosesi, yəni süxurların tərkibində hansı faydalı mineralların olduğu təhlil edilir, filizli hissələr isə ayrıca qeydiyyata alınır. Tədqiqat işlərimiz başa çatdıqdan sonra kern nümunələrinin hər biri təhlükəsiz şəkildə Culfa rayonundakı müvəqqəti anbarımıza daşınacaq. Orada nümunələr əlavə olaraq təhlil olunacaq, kernlər ortadan ikiyə bölünərək daxili strukturları da qiymətləndiriləcək. Daha sonra müəyyən dərinlik aralıqları üzrə örnəkləmə aparılacaq və bu əsasda təkrar analizlər üçün nümunələr seçiləcək. Nümunələr üyüdülüb səliqəli şəkildə qablaşdırıldıqdan sonra Türkiyəyə analizə göndəriləcək. Analiz nəticələri əsasında hansı dərinlikdə hansı filiz komponentlərinin mövcud olduğu müəyyən ediləcək və bu nəticələrə əsasən sahənin ehtiyat hesablamaları aparılacaq. Nəticə olaraq isə tam elmi əsaslara söykənən sahə hesabatı hazırlanacaq. Hazırda işin gedişatından məmnunluğumuzu bildiririk”.

Geologiya elmləri doktoru Ali Uzuner isə əlavə etdi: “Hazırda sahədə qazma işlərinin vəziyyəti qənaətbəxşdir. İndiki mərhələdə daha keyfiyyətli filiz nümunələrinin əldə ediləcəyinə inanırıq. Əsas məqsədimiz molibdenin, yəni filiz komponentlərinin burada olub-olmamasını və ehtimal olunan miqdarının müəyyənləşdirməkdir. İşlərimizə yeni başlamışıq və ümid edirik ki, bu prosesi uğurla və elmi əsaslarla tamamlayacağıq”.

Geoloji tədqiqatlar aparılan yataqlarda gördüklərimiz və yüksəkixtisaslı mütəxəssislərlə söhbətlərimiz bizdə belə bir qənaəti gücləndirdi ki, ölkəmizdə yeraltı sərvətlər zəngindir. Belə sərvətlərin öyrənilməsinə, üzə çıxarılmasına böyük qayğı ilə yanaşılır. Həmin sərvətlər Ulu Tanrı tərəfindən xalqımıza ərməğan edilmiş ən qiymətli maddi miraslardandır. Təbii sərvətlərin əldə edilərək dövriyyəyə buraxılması isə iqtisadiyyatımızın gücləndirilməsi və nəticə etibarilə, xalqımızın rifah halının daha da yaxşılaşdırılması istiqamətində atılan mühüm addımdır.

✍ **Aidə İBRAHİMOVA**



# Ruhumuz o torpaqlarla doğmalaşdı




✍ Məmməd BABAYEV
*“Şərq qapısı” qəzetinin baş redaktorunun müavini*

Bəzən havadan tanış bir günün ətri gəlir. Hansı gün olduğunu bilmirsən, amma o gün xoşbəxt olduğunu bilirsən. Həmin gün də havadan tanış günün ətri gəlirdi. O günə qədər heç vaxt ayaq basmadığımız, ətrini hiss etmədiyimiz, gözəlliklərini görmədiyimiz torpaqlar bizim üçün çox tanış ətir saçırdı. Çünki ruhumuz o torpaqlarla doğmalaşmış, hiss etmiş, onu bütün varlığında yaşatmışdı. O qoxu ruhumuz üçün doğma idi.

***

Ağlım kəsəndən bəri o torpaqlar haqqında ancaq bir şeyi eşidirdim: işğal, qaçqınlar, düşmən, elan olunmamış müharibə, BMT-nin yerinə yetirilməyən qətnamələri və bununla bağlı sadalayacağım xeyli nüanslar. Ekranlardan gördüyüm ürək ağrıdan kadrlar, Xocalı faciəsi, qaçqın şəhərcikləri, çadırlarda, vaqonlarda yaşayan insanlar. O torpaqlar yaddaşımda məhz bu sözlərlə assosiasiya olunmuşdu.

Hələ 14 ildən artıq bir zaman kəsiyi bundan əvvəl bir dəfə Arazın cənub sahili ilə olan bir səfərimizi xatırlayıram. Onda Araza ilk dəfə belə yaxından tamaşa etmişdim, ilk dəfə cənub tərəfdən görmüşdüm onu, həm də son dəfə. Heyrətlə baxırdım ona. Sonra isə Araza olan təəccüb dolu baxışlarım, bəlkə də, heyranlığım indiyə qədər müşahidə etmədiyim bir mənzərənin açılması ilə təəssüf və kədərlə əvəzləndi, bir az da məyusluqla. Uçuq, xaraba kəndlər, boş qalmış yuvalar Araz boyu zəncirlənib uc-uca calanmışdı. Onda hələ yad tapdağında olan torpaqlarımızı və oradakı xaraba vəziyyətinə salınmış kəndləri görmüşdüm. O torpaqları da, o boş qalmış, sadəcə, uçuq-sökük divarlarından nə zamansa yaşayış yeri olduğu hiss edilən yerləri də ilk dəfə idi ki, mavi ekrandan deyil, öz gözlərimlə müşahidə edirdim. Onda yaşadığım hissləri heç nə ilə təsvir edə bilmərəm. Söz acizdir.

Bu mənzərə qarşısında ruhumun ən dərin qatlarına qədər işləmiş məyusluğu, kədəri, sonra isə bunun səbəbkarlarına olan nifrəti təkrar-təkrar və dəfələrlə yaşadım. Sanki sərhədin o tayına yox, neçə əsrin o üzünə, qədim dünyamıza baxırdım. Bu sıldırım qayalar, divar kimi üz-üzə dayanmış daşlar elə bil, aradakı uçurumun necə dərin olduğunu göstərirdi. O uçurum bizi tarixin vəhşi bir səhifəsindən ayırırdı, bizi, sadəcə, müşahidəçiyə, tamaşaçıya çevirirdi. Bu qədər yaxından görmək, bunu hiss etmək, amma əlinin çatmaması çox ağır bir duyğu idi.

Sonradan isə ritm dəyişməyə başladı: Aprel döyüşləri, Günnüt zəfəri, İyul döyüşləri, 44 günlük Vətən savaşı və birgünlük antiterror əməliyyatı. Bu, xalqın, dövlətin özünə dönüşü idi. Böyük bir tarixin yenidən başlanğıcı.

Dostumun birlikdə Qarabağa səfər etmək, buranı yalnız yazılarda, fotolarda, videolarda deyil, əyani tanımaq təklifi ilə həvəslə razılaşdım. Bu bizim o torpaqlara ilk səfərimiz idi, həm də ən böyük təəssüratların başlanğıcı. Çünki heç vaxt görmədiyimiz, yalnız haqqında eşidib-oxuduğumuz yerləri indi canlı müşahidə edəcəkdik.

İşğaldan azad edilmiş torpaqlara ilk ayaq basanda bələdçinin dediyi “Şən mahnılara qulaq asaraq ora getmək bizə yaraşmaz. O torpaqlarda qan var” fikri yol boyunca hey düşüncələrimdə dolanırdı. Bəli, o torpaqlarda qan var idi. Əvvəlcə minlərlə günahsız sakinlərin qanı, sonra isə bu torpaqların müdafiəsi və azad edilməsi uğrunda canını fəda edən şəhidlərin qanı. Ona görə də bu torpağa onlara layiq şəkildə ayaq basmaq lazım idi: özünü bu torpağa fəda edənlərə ehtiram, sağlamlığını qurban edənlərə minnətdarlıq və həyatda olmayanların ruhuna sükut.

Bələdçi elan edir: “Artıq biz işğaldan azad olunmuş ərazilərə daxil oluruq”. Yolboyu dağıdılmış, tanınmaz hala gəlmiş, daş üstündə daş qalmamış, nə zamansa minlərlə insanların yaşadığı kəndləri, şəhərləri geridə qoyuruq. Bu dəfə bu mənzərəni başqa bir ölkənin sərhədlərinin o tayından deyil, öz sərhədlərimiz daxilində və birbaşa müşahidə edirik. Bəzi məqamları ifadə etməkdə söz yenə acizdir. Artıq, demək olar ki, sıfırdan inşa edilən Ağdamdayıq. Vaxtilə “Qafqazın Xirosiması” adlandırılan Ağdam indi, sözün həqiqi mənasında, tikinti meydançasıdır. Yan-yana düzülmüş yaşayış və inzibati binalar, geniş yollar Ağdamın nəinki Azərbaycanın, Qafqazın ən möhtəşəm şəhərlərindən biri olacağını sübut edir.

Hər zaman qar və soyuqla, dondurucu şaxta ilə təsəvvürümüzə həkk olunmuş Xocalını bu dəfə yaşıllığa qərq olmuş şəkildə gördük. Əsən külək ağacların yarpaqları arasından pıçıltı ilə keçmişi yenidən danışır sanki. Məlum faciənin yaşandığı əraziləri ağuşuna almış yaşıllıq və günəş gələcəyin xoş məramını da müjdələyir bizə. Burada məskunlaşan insanlar o ağrını qəlblərinin dərinliklərində yaşadıb bu torpağın yenidən qurulmasında iştirak edənlərdir. Bu yerləri əyani şəkildə gördükdən sonra dostumla müzakirə edirik: bu bir tarixin, eyni zamanda qürurun söhbəti idi. Bir zaman sakinlər ayaqyalın tərk etdikləri torpaqlara indi ləyaqətlə geri qayıdıblar, öz torpaqlarında yenidən məskunlaşıb, qurub-yaradırlar. Cərgə ilə sıralanmış evlər və tikintisi davam edən yaşayış binaları ürəyimizi fərəhlə doldurur.



Artıq yeniləşən siması ilə Xankəndi şəhərindəyik. Şəhər həyatında kifayət qədər canlanma var. Düşünürəm ki, Xankəndi şəhəri heç vaxt indiki qədər Azərbaycanın olmayıb. Vaxtilə adı dəyişdirilən, başqa millətlərin məskunlaşdırıldığı tarixi şəhərimiz məhz indi əsl Azərbaycan şəhəri kimliyinə qovuşur. Sürətlə aparılan tikinti və abadlıq işləri Xankəndini artıq beynəlxalq tədbirlərin keçirildiyi bir məkan halına gətirib. Xankəndi öz siması ilə Azərbaycan reallıqlarının, bugünkü inkişafımız və parlaq zəfərimizin ən yaxşı simvollarından birinə çevrilib.

Dostumla şəhərin mərkəzindəki parkda skamyada otururuq. Əsən sərin külək xəfif şəkildə parkdakı ağacların budağını yelləyir. Qarabağ Universiteti tələbələrinin parkdakı maraqlı müzakirələri, velosiped sürən balaca uşaqların şən gülüşləri, fontandan tökülən suyun aram səsi və parkda qoyulmuş pianoda tanış musiqini ifa edən xanım qonaq. Bütün səslər bir-biri ilə culğaşaraq ahəngdar və xoş bir aura yaradır. Bizsə bir zamanlar yad əllərdə olan Xankəndinin mərkəzi parkında oturduğumuza inana bilmirik. Sonra isə dostum bizim sükutu pozur; Ali Baş Komandan bunu bacardı... Siyasi iradə, diplomatik güc, informasiya savaşı və hərbi qüdrət. Nəticədə, biz buradayıq – Xankəndinin mərkəzində. Təəssüratlar isə sözlə ifadə edilə bilməyəcək qədər zəngindir...

Yolumuz Azərbaycanın mədəniyyət paytaxtı Şuşayadır. Dik yamaclar, sıldırım qayalar arasında uzanan yol bizi zirvəyə doğru aparır. Qartal yuvası kimi sıldırımın zirvəsində qərar tutan Şuşa doğma siması ilə qarşılayır bizi. Yaşıllığa bürünmüş Cıdır düzündə yallı səslənir. Birliyimizi təmsil edən musiqinin sədaları qayalarda əks-səda edərək yaxın, uzaq ellərə gücümüzü nümayiş etdirir. “Biz qayıtdıq”, – deyir sanki bu əks-səda, ədaləti bərpa etdik, qanımız, canımız bahasına qayıtdıq. Əl-ələ tutaraq yallı gedən şəhərin qonaqları Cıdır düzünün qaynar keçmişinə işıq tutur. Natəvanın qəzələnin ruhunu aldığı, Vaqifin şux gözəlinin gəzdiyi bu çəmənlər yenidən öz doğmalarına qovuşduğu üçün şaddır. Molla Pənah Vaqifin ruhu isə əzəmətli məqbərəsinin naxışları arasından öz gözəllərinə ən yaxşı gözəllləmələri pıçıldayır. Doğma şəhərini zirvədən seyr edərək fərəhlənir.

İndi yalnız quru divarları qalmış Şuşa malikanələrinə, evlərə baxdıqca təsəvvürümdə başqa bir aləm canlanır. Deyirlər ki, Şuşanın gecələri çox qəribə olarmış. Ulduzlar göylərə səpilən zaman hər evdə tar-kaman dil açarmış. Bəzən də səhərədək bu qeyri-adi səslər susmazmış. Bu musiqidən coşan qayalar da nəğmə deyərmiş. Nəinki Şuşada doğulmaq, orada böyümək, elə bu şəhəri sevərək onun qonağı olmaq da bəs edərdi ki, sənin də qəlbin musiqi ilə döyünsün.

Şuşa haqqında düşünəndə adamın gözləri qarşısında qəribə mənzərələr yaranır. Bir tərəfdə dağların sinəsində məğrur dayanan doğma şəhər, digər tərəfdə də onun şöhrətini ellərə yayan şuşalılar. Həyat isə burada bir yolunu tapıb sahibsiz qalmış evləri belə yaşıllığa və gül çiçəyə qərq edib. Torpaq dolmuş pəncərələrdən qucaq-qucaq çiçəklər sallanır.

Və güllələnmiş heykəllər. Dostumun ən çox can atdığı məqam Şuşanın mərkəzindəki o heykəlləri görmək və onlarla foto çəkdirmək idi. Hələ yolumuz Şuşa istiqamətinə dönəndən bəri sanki bütün düşüncələri o heykəllərin yanında idi desəm, yanılmaram. Bəzən insan heç zaman görmədiyi torpaqlarda baş vermiş hadisələrə qarşı o qədər həssas ola bilir ki, bunu sözlə izah etmək çətindir. Bunu yaşamaq lazımdır. İndi də məhz belə məqamlardan biri idi. Dostumla diqqətlə heykəlləri nəzərdən keçirib hər biri ilə xatirə fotosunu telefonun yaddaşına həkk edirik və məşum güllələrin izlərini. Bu, səfərimiz çərçivəsində dostumun, bəlkə də, ən çox gözlədiyi an idi. Yəqin ki, hətta cansız heykəllərə qarşı törədilmiş bu əməl bizim hələ uşaq yaşlarından eşitdiyimiz və mənalandırmaqda çətinlik çəkdiyimiz hadisələrdən olduğuna görə daha çox diqqətimizi çəkirdi. Cansız daş heykəllərdən nəyin acığını çıxmaq, nəyin intiqamını almaq olar ki? Bəlkə də, bu misilsiz musiqi və poeziya nümunələrini yaratmaqla Azərbaycan kimliyinə əbədi daş möhürünü vurmuş həmin şəxslərin indi heykəlləşən simalarına qarşı belə duyulan qısqanclığın intiqamı idi. Dostumla etdiyimiz söhbətin yekun nəticəsi də elə bu oldu.









Laçını isə tərəddüdsüz şəkildə Azərbaycanın İsveçrəsi adlandıra bilərəm. Gecəni keçirdiyimiz Laçında səhəri çiskin yağış və dumanlı şəkildə açırıq. Möcüzəvi təbiəti ilə sanki başqa dünyadan qopub qızmar yayın ortasında məkan tutmuş adanı xatırladır Laçın. Bir-birindən yaraşıqlı evlər modern və klassik memarlıq üslubunun ən yaxşı elementlərini özündə birləşdirib tamaşaçısını heyran qoyur. Qatı duman şəhərin yuxarıdan görünən mənzərəsindən bizi məhrum etsə də, bu çiskin yağışda da, ağ örpək kimi şəhəri qucaqlamış dumanda da Laçını bizim üçün doğmalaşdıran mistik bir aura var. Zabux kəndinin cərgələnmiş evləri, Həkərinin enli axarı və bulvarın sərin mənzərəsi isə başqa bir aləmdir.

Geri dönüşdə yolumuz dövlət sərhəddinin yaxınlığından keçir. Burada dalğalanan Azərbaycan Bayrağı və qürurla dayanmış sərhədçimiz qarşı tərəfi müşahidə edir. Bir zamanlar yalnız adını eşitdiyimiz, Vətən müharibəsindən sonra sərhəd-buraxılış məntəqəsinin qurulduğu bu ərazi bizim üçün çox böyük mənalar ifadə etmək gücündədir. Azərbaycanın suverenliyinin bərpası, torpaqlarına tam sahibliyinin və hakimliyinin simvoludur bura. Əzəmətli Laçın dağlarının ağuşunda qürurla dalğalanan üçrəngli bayrağımız qüdrətli dövlətçiliyimizin, güclü ordumuzun, vətən sevgisinin ən yaxşı təcəssümüdür.

Yolumuz isə Zəngilanadır, “ağıllı kənd” prototipinin tətbiq olunduğu Ağalı kəndinə. Sosial şəbəkələrdən gördüyüm Zəngilan rayonunun Ağalı kəndində yaşayan gənc xanımın videolarını xatırladım. Yaşadığı torpaqları böyük sevgi və məhəbbətlə vəsf edən, eyni zamanda o torpaqlar uğrunda canını fəda etmiş, sağlamlığından keçmiş hərbçilərə dərin ehtiramla yanaşan həmin xanımın Vətən sevgisi çoxları üçün örnəkdir. İndi bu kəndi özüm canlı şəkildə görürəm. Ağalı kəndinin zəhmətkeş insanları bu torpaqları yenidən cənnətə çevirir, əkir, biçir, öz təsərrüfatlarını inkişaf etdirirlər. Torpağa bağlılıq, gələcəyə inam bu yerlərin sürətli inkişafının ən yaxşı motivasiyasıdır.

İki gün ərzində gəzdiklərimiz, gördüklərimiz işğaldan azad olunmuş yerlərin, sözün əsl mənasında, tikinti meydançası olduğunu, qlobal miqyaslı layihələrin həyata keçirildiyini bir daha əyani şəkildə sübut etdi. Keçdiyimiz yollarda, yaşayış məntəqələrində elə bir yer yox idi ki, hər hansı bir tikintiyə, təmirə rast gəlməyək. Yeni yollar, müasir tunellər, modern yaşayış məntəqələri və daha nələr-nələr...

İlahi ədalət deyilən bir məfhum var. Düzdür, əksər hallarda beynəlxalq hüquq gücün tərəfində durur, ədaləti gözardı edir. Amma bu gün yaşadığımız dünyada, nəhayətində, ədaləti də gücün özü təmin edir. Necə ki Azərbaycan bunu etdi. Ədaləti bərpa etdi, addım-addım, zərrə-zərrə gətirdi. Həqiqət kar, kor, topal, lal olsa da, onu gətirmək üçün illərlə çəkilən zəhmətin, gərgin əməyin bəhrəsinə hər birimiz şahidlik etdik...

Qayıdanda isə dostum təklif etdi ki, 5 ildən sonra bu torpaqlara mütləq şəkildə yenidən səfər edək. Amma Zəngəzur dəhlizindən öz avtomobilimizlə keçməklə. Bu diyarı 2 günə deyil, daha uzun müddətə qarış-qarış yenidən gəzək. Görülən işlərin, irimiqyaslı layihələrin nəticələrini, olacağına şübhə etmədiyimiz böyük dəyişiklikləri, yenidən tikilən, məskunlaşan yurd yerlərimizi özümüz təkrar görək. Bu müddət isə çox da uzaq gələcək deyil. Sağlıq olsun.

# O qatar yenə gələcək

## və şəhərin sükutunda zəfər zəngi çalınacaq

Şərur şəhərini iki yerə bölən bir dəmir yolu xətti var. Üstündə böyük bir körpü də inşa olunmuşdu sovetlər dönəmində. Bu həmin dəmir yoludur. Bakıdan gəlib, Mehridən keçib Şərur şəhərində insanları öz yurduna qovuşduran dəmir xətt. Bakıdan başlayıb Şərurda son dayanacaq olan yol. Və həm də vaxtilə rusların daş ürəkləri ilə döyüb düzəltdikləri maşa. Bu yol həm də İrəvana kimi uzanırdı. Uzaq Rusiyanın müxtəlif şəhərlərindən gələn qatarlar Ermənistanın dağlıq relyefinin əlverişsiz şəraitinin çətinliyinə görə məhz Mehridən Naxçıvan Muxtar Respublikası ərazisinə keçir, buradan Azərbaycan – Naxçıvan üzərindən İrəvana çata bilirdi. Müstəqilliyi yenicə qazandığımız o çətin günlərin birində Şərur sakinləri qatar yolunun üzərində toplaşıb həmin yolu kəsdilər. Çünki ermənilər Mehri yolundan keçən Bakı-Noraşen qatarının qarşısını kəsib sərnişinləri əsir götürmüşdülər.




Həmin gün Şərur şəhərindən keçən qatar yolunda toplaşan insanlar sanki dəmir səddə dönüb onlarla vaqondan ibarət yük qatarının qarşısını kəsib Mehridə baş verən hadisəyə öz etirazlarını bildirdilər. Bu həmin günlər idi ki, sovetlərin əcəl zənginin çalınmasından istifadə edən ermənilər Qarabağa və Naxçıvana silahlı hücumlar edir, Mehridən keçib gələn qatarların qarşısını kəsməklə qalmayıb insanlara xəsarət yetirir, onları qarət edirdilər. Naxçıvana gələn mavi yanacaq və elektrik xətti də ermənilər tərəfindən kəsilmişdi. Vaxtilə onlara peşkəş verilən Zəngəzur düşmənin əlində fürsətə çevrilmişdi.

Həmin çətin günlərdən sonra qatarlar gəlməz oldu. Şərur vağzalından qatar səsi kəsildi. Üstündəki körpü də söküldü dəmir yolunun.



Sonralar hər səhər tezdən tək bir qatarın siqnal səsi eşidilməyə başladı. Sadəcə, səhər $8^{00}$-da Sədərəkdən Ordubada gedən tək bir qatarın... Və Şərur şəhər sakinləri səhər səkkizdə, günorta üçdə bu qatarın keçdiyi yola baxıb son Bakı-Noraşen qatarını xatırladılar. Hansı ki o qatarla əzizlərimiz Bakıdan evinə gəlirdi. Çox insanın xəyalları yaşayırdı axı bu perronda. Oğullarını uzaq Rusiyanın ucqar yerlərinə hərbi xidmətə göndərən anaların gözləri aylarla bu yolda qalmış, elə vaxt olmuşdu ki, Bakı-Noraşen qatarında Şərura gəlin belə gətirmişdik. Bəzən də arxasınca baxa bilmədiyimiz qatarlar yola salmışdıq son stansiyadan. Elə ona görə də bu yol təkcə dəmir relslər deyil bizim üçün, həm də keçmişin xatirələrinin yaşandığı bir yol olmuşdu. Bir gün yenə də səhər-səhər bu perrona çatan, insanları bir-birinə qovuşduran Bakı-Şərur qatarının səsini eşitmək ümidi ilə yollara baxmışdıq.

Nə az, nə çox, 35 il... Amma heç vaxt ümidimizi itirməmişik. Çünki biz illərdir, öz mətanəti, dözümü ilə ən böyük güclərə meydan oxuyan bir millətin övladıyıq. Çünki bizim siyasətin şahmat lövhəsində ən əlverişli variantını qurmağı bacaran liderimiz var. Heç vaxt populist vədlərlə arxayınlıq təbliğatından istifadə etməyən, reallığa əsaslanan bir Prezidentimiz var. Bəli, reallığa və xalqına arxalanan lider. Öz ordusu ilə xalqına arxalanıb Zəfər yolu açan lider bu yolu da açır artıq. Tezliklə Bakı-Şərur qatarı hərb meydanında və siyasi masada qazanılan qələbə ilə çəkilən yolla Şərur şəhərinə çatacaq və şəhərin sakitliyində eşidilən qatar səsi lap yaxınlıqda yerləşən Şərur Şəhidlər xiyabanında uyuyan Vətən oğullarının ruhunu şad edəcək.




# Qafqazları aşmışıq biz



“Çırpınırdı Qara dəniz” – bu şeiri 1914-cü ildə Əhməd Cavad yazanda da, Üzeyir Hacıbəyov onu illər sonra bəstələyəndə və bir dəfə oxunub 70 il susanda da heç kimin ağlına gəlməzdi ki, həmin sətirlərdəki arzular illər sonra bir-bir həyata keçəcək. Və biz bu şanlı tarixə şahidlik edib onu yaddaşa köçürəcəyik.

Bəli, bizim nəsil elə bir tale yaşadı ki... Biz günlərlə susmayan atəş səsləri altında böyüyüb bir ovuc torpaq üçün can verən oğulların igidliyinə, özü ac qalsa da, çörəyini səngərə göndərib “Vətən anadır”, – deyən qadınların mətanətinə, azadlıq üçün sinəsini düşmən gülləsinə sipər edənlərin qəhrəmanlığına şahid olduq. Həm Vətən sevgisinə, həm Vətənə sədaqətə… Bu Azərbaycan tarixinin ən möhtəşəm günləri idi. Biz qalib ölkə, qalib xalq adına layiq görülən bir Vətənin övladı olmaq şərəfinə çatdıq. Türkün şanlı bayrağını Turana asmaqla yetinməyib, Qafqazları aşdıq. Bunu bacardıq. Xalqın birliyi, Vətən sevgisi ilə. Heç vaxt “Mən”, – deməyib, ***“Canım varlığım qədər sevdiyim Azərbaycanım”***, – deyən bir liderin uzaqgörənliyi, gördüyü bütün işləri xalqın qələbəsi, şəhidinin, qazisinin rəşadəti olduğunu deyən Ali Baş Komandanın təvazökarlığı ilə.

Biz Cənubi Qafqazda 200 ildən çoxdur ki, davam edən haqsızlığa qalib gəlib torpağımızı peşkəş verilməkdən xilas etdik. Türkmənçay, Gülüstan sülh müqavilələri ilə yarımcan edilən Azərbaycanı öz şərəf və ləyaqətinə qovuşdurduq. Qafqaz dağlarını aşıb dünyaya kim olduğumuzu sübut etdik. Sübut etdik ki, Azərbaycan daha gücsüz deyil. O öz tarixinin ən qüdrətli günlərini yaşayır. Bizim başımız dik, alnımız açıqdır. Çünki biz öz torpaqlarımızın sahibiyik. Çünki bizim bayrağımız dünyanın hər yerində qalib ölkənin bayrağı kimi dalğalanır. Ölkə başçısının dediyi kimi: ***“Bu gün əminəm ki, dünya azərbaycanlıları yaşadıqları bütün ölkələrdə başı dik, alnıaçıq, üzüağ gəzirlər və öz tarixi vətəni olan Azərbaycanla haqlı olaraq fəxr edirlər”.*** Xalqımız tarixin müxtəlif dövrlərində çətin, ağır sınaqlarla üz-üzə qalsa da, heç zaman haqqının qorunması, hüquqlarının müdafiəsi uğrunda mübarizəsindən imtina etmədi, bu ağrı-acılar vətənpərvər xalqımızı daha da sıx birləşdirdi, qətiyyət və cəsarət qalib gəldi. İndi Azərbaycanın səsi Qafqazın sərhədlərini aşıb Turana yayılır. Dünya xəritəsində kiçik yer kimi görünən bu torpağın ürəyi Vətən sevgisi ilə dolu olan insanların qəhrəmanlığı bütün dünyaya səs salır.

Azərbaycan xalqı qazandığı qələbə ilə təkcə Cənubi Qafqazda yox, dünyada söz sahibinə çevrildi. Avrasiyanı öz qüdrətli sərkərdəsi ilə fəth edib, okeanın o tərəfində Azərbaycan Bayrağını dalğalandırdı. Bu təkcə bir liderin öz komandası ilə qazandığı zəfər deyildi, bu bütöv bir xalqın qələbəsi idi. Artıq Cənubi Qafqazda qəbul edilmiş bir teorem var: Azərbaycanla dost olanlar qazanır, düşmən olanlar isə itirir.

Bəli, tarixin səhifələrinə öz imzasını fəxrlə atan Prezident İlham Əliyev 22 illik hakimiyyəti dövründə heç vaxt “Mən”, – demədiyi, xalqı Ulu Öndər kimi sevdiyi, torpağı öz anası bildiyi üçün biz qalib olduq. Güclü olduq, sözü kəsərli olduq.

**✍ Ramiyə ƏKBƏROVA**

# Naxçıvanda “yaşıl nəqliyyat” dövrü başlayır

Naxçıvan şəhərinin küçələrində yaxın vaxtlarda sakit, ekoloji təmiz və ağıllı avtobuslar hərəkət edəcək.

Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, muxtar respublikada nəqliyyat sisteminin təhlükəsizliyinin artırılması, atmosferə atılan tullantıların azaldılması və ekoloji mühitin yaxşılaşdırılması məqsədilə şəhərə 60 ədəd elektrik mühərrikli avtobus gətiriləcək.

Avtobuslar ilkin olaraq sınaq müddətində yoxlanıldıqdan sonra şəhərin ictimai nəqliyyat marşrutlarında istifadəyə veriləcək.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 mart tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində sərnişindaşımaların yalnız elektrik mühərrikli avtobuslarla həyata keçirilməsi, enerji doldurma avadanlıqlarının quraşdırılması, həmçinin bu avtobuslara xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə depo (qaraj) infrastrukturunun təkmilləşdirilməsi nəzərdə tutulur. Bu məqsədlə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi çərçivəsində Prezidentin müvafiq Fərmanına uyğun olaraq “Baku Bus” MMC-yə 33 milyon 449 min manat vəsait ayrılıb.



Hazırda görülən işlər çərçivəsində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan “Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyi” PHŞ-nin balansındakı əmlak kompleksinin bir hissəsi qanunvericiliyə uyğun olaraq “Baku Bus” MMC-nin istifadəsinə verilib.

“Azerbaijan Energy Automotive Factory” MMC ilə bağlanılmış müqaviləyə əsasən yeni gətiriləcək BYD markalı elektrik avtobusları 8,7 metr uzunluğa, 226 kVt gücündə batareyaya malikdir və tam enerji ilə 240 kilometr məsafə qət edə bilir.

Layihə çərçivəsində qaraj ərazisində avtobusların enerji təchizatını təmin etmək məqsədilə 6 MVA gücündə 35/0,4 kV-luq transformator məntəqəsi inşa olunacaq. Bundan əlavə, qaraj daxilində 13 ədəd (onlardan 10-u bu il alınacaq avtobuslar, 3-ü isə gələcəkdə alınacaq avtobuslar üçün nəzərdə tutulub) 320 kVt-lıq sürətli enerji doldurma cihazı quraşdırılacaq. Marşrut xətlərinin son dayanacaqlarında isə əlavə 4 ədəd analoji cihaz quraşdırılması planlaşdırılır. Beləliklə, ümumilikdə, 17 ədəd 320 kVt-lıq sürətli enerji doldurma cihazı istifadəyə veriləcək.

Layihənin cari ilin sonunadək tam başa çatdırılması planlaşdırılır.

# Daha 40 nəfərin Ağbulaq İstirahət Mərkəzində istirahəti təşkil olunub



Avqustun 9-da Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşəbbüsü ilə təşkil olunan yay istirahəti proqramı çərçivəsində daha 40 nəfər ittifaq üzvü Ağbulaq İstirahət Mərkəzinə göndərilib.

İkigünlük istirahət müddətində iştirakçılara dincəlmək və asudə vaxtlarını səmərəli keçirmək üçün geniş imkanlar yaradılıb. İttifaq üzvləri kanat xətti, şahmat, tennis və digər maraqlı intellektual oyunlardan faydalanıblar. Mərkəzdə təşkil olunan canlı musiqi isə ittifaq üzvlərinə əyləncəli anlar yaşatmaqla yanaşı, onların istirahətini daha da yaddaqalan edib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkil etdiyi bu proqram çərçivəsində ittifaq üzvləri aldıqları yollayışların yalnız 15 faizini ödəməklə şənbə və bazar günlərini Ağbulaq İstirahət Mərkəzində maraqlı və yaddaqalan şəkildə keçirə bilirlər.

# Oruc Həsənli onu tanıyanların qəlbində yaşayır

*Tanınmış alim, pedaqoq, bacarıqlı elm və təhsil təşkilatçısı, Naxçıvan Müəllimlər İnstitutunun rektoru olmuş, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, pedaqogika üzrə elmlər doktoru, professor, mərhum Oruc Qafar oğlu Həsənli 1950-ci il avqustun 15-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Ələkli kəndində anadan olmuşdu. Orta təhsilini qonşu İbadulla kənd məktəbində başa vurduqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olub, 1972-ci ildə həmin rayonun Xanlıqlar kənd tam orta məktəbində ali təhsilli coğrafiya müəllimi kimi əmək fəaliyyətinə başlamışdı.*



Bir neçə il orta məktəb müəllimi kimi çalışan Oruc Həsənli 1975-ci il okyabrın 11-dən ozamankı akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunda (indiki Naxçıvan Dövlət Universitetində) elmi-pedaqoji fəaliyyətə başlayır və bütün qalan ömrünü bu müqəddəs fəaliyyət sahəsinə həsr edir. Naxçıvan Dövlət Universitetində assistent, müəllim, baş müəllim, dosent, professor vəzifələrində 43 il çalışan, Naxçıvanda ilk özəl ali təhsil müəssisəsinin yaradıcılarından biri olan professor Oruc Həsənli 1993-2008-ci illərdə həm də Naxçıvan Özəl Universitetində tədris və elmi işlər üzrə prorektor vəzifəsində fəaliyyət göstərməyə başlayır. O, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Naxçıvan Müəllimlər İnstitutuna 2010-cu ildə rektor təyin edilir və ömrünün sonuna kimi bu məsul vəzifəni icra edir. Bu ali məktəbin bütövlükdə formalaşdırılması, onun elmi-pedaqoji kadr potensialının zənginləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq əlaqələrinin yaradılması, institutun ümumrespublika səviyyəli qabaqcıl ali təhsil müəssisəsi kimi tanıdılması istiqamətində böyük əmək sərf edən bacarıqlı elm və təhsil təşkilatçısı, professor Oruc Həsənlinin xüsusi diqqət və qayğısı ilə əhatə olunan digər bir sahə muxtar respublikanın ümumtəhsil məktəbləri olmuşdur.

Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyasına – Milli Kurikuluma keçidlə bağlı müəllimlərin zəruri ixtisasartırma və yenidənhazırlanma kurslarından keçirilməsi, bu konseptual sənədin dərindən mənimsənilməsi və ilkin nəticələrin dəyərləndirilməsi məqsədilə onun nəzəri və praktik problemlərinə həsr olunmuş regional elmi-əməli konfranslar və seminarlar, diskussiyalar və debatların müntəzəm təşkili məsələləri rəhbərlik etdiyi ali məktəbin fəaliyyətinin mühüm istiqamətlərindən biri olmuşdur. Yeni yarandığına və regionda fəaliyyət göstərməsinə baxmayaraq, Naxçıvan Müəllimlər İnstitutu ali təhsil sahəsində fəaliyyət göstərən dövlət və özəl müəssisələr arasında qeyri-hökumət təşkilatları tərəfindən aparılan reytinq təyinetmə tədbirlərində iki dəfə ard-arda birinci onluğa daxil olmuşdur.

Oruc Həsənlinin elmi-tədqiqat fəaliyyəti də uğurlu olmuşdur. 1992-ci ildə “Diyarşünaslıq materiallarından istifadə şagirdlərin mənəvi tərbiyəsinin vasitəsi kimi” mövzusunda namizədlik, 2005-ci ildə isə “Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadənin sistemi” mövzusunda doktorluq dissertasiyaları müdafiə etmiş, uyğun alimlik dərəcələrini almışdır. 1996-cı ildə dosent, 2012-ci ildə isə professor elmi adlarına layiq görülmüşdür.

Oruc Həsənli 2017-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir. Respublika pedaqoq və psixoloqlarının AMEA-da ilk təmsilçisi olmuşdur. Alim-tədqiqatçı ölkə daxilində və xaricdə nəşr olunmuş 200-dən artıq elmi əsərin, o cümlədən 20-dən artıq kitabın müəllifidir. O, iştirakçısı olduğu mötəbər beynəlxalq elmi konfrans və simpoziumlarda Azərbaycan elmini layiqincə təmsil edib.

Oruc Həsənli ölkəmizdə yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında mühüm xidmətlər göstərib. Onun rəhbərliyi ilə 1 elmlər və 10 fəlsəfə doktoru hazırlanıb. Alimin rəsmi opponentliyi ilə 22 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə edib.

Təhsilin müasir pedaqoji-psixoloji problemləri, o cümlədən təhsil prosesində şagird şəxsiyyətinin formalaşdırılması, sosial psixopedaqogikada istedadlı uşaqlar, hazırkı hafizə məktəblərindən təfəkkür məktəblərinə keçid, məktəbə psixoloji xidmət və sair kimi aktual məsələləri tədqiq edən müəllif belə bir əsas elmi nəticəyə gəlmişdi ki, müasir Azərbaycan təhsilinin gələcək inkişafının beynəlxalq qiymətləndirmə tələblərinə cavab verməsini təmin etmək üçün bu gün həyata keçirilən kompleks tədbirlər sistemində, bütövlükdə, psixologiyanın, o cümlədən pedaqoji psixologiyanın rolu əvəzsizdir və onun tətbiqi aspektlərinə diqqət daim artırılmalıdır.

Oruc Həsənli yeni təhsil ideyalarının ümumiləşdirilib yayılması baxımından ardıcıl və sistemli iş aparırdı. Həmişə elmi-pedaqoji və psixoloji araşdırmalarının kütlələrə, eləcə də pedaqoji ictimaiyyətə çatdırılması üçün televiziyanın, radionun, mətbuatın imkanlarından geniş istifadə edirdi.

Əməkdar elm xadimi Oruc Həsənli həm də yorulmaz ictimai xadim və təmənnasız insan idi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin üçüncü, dördüncü və beşinci çağırış deputatı olmuşdur. Muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında həmişə yaxından iştirak etmiş, öz fəallığı və obyektivliyi ilə böyük nüfuz qazanmışdı.

O, elmi və pedaqoji sahədəki xidmətlərinə görə ölkə Prezidentinin 3 oktyabr 2007-ci il tarixli Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif olunub, 5 aprel 2014-cü il tarixli Sərəncamı ilə isə Əməkdar elm xadimi kimi yüksək fəxri ada layiq görülüb.

Tanınmış alim və pedaqoq, bacarıqlı elm və təhsil təşkilatçısı, səmimi insan və sədaqətli dost olan Oruc Həsənlini yaxından tanıyanlar onu “insanlığın zirvəsi” adlandırırdılar. Ömrünün 68-ci ilində dünyasını dəyişən alimin xatirəsinə dostlarının, ailə üzvlərinin birgə hazırladıqları kitab da belə adlanır: “Oruc Həsənli: insanlığın zirvəsi”.

ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov yaxın dostuna yüksək qiymət verərək deyir: “O, Allahın sevimli bəndələrindən idi. Allah-taala ona, hər şeydən əvvəl, gözəl xasiyyət bəxş etmişdi. Səbirli, təmkinli, ədəbli, səxavətli, xeyirxah, təvazökar, insansevər və təmənnasız adam idi”.

Naxçıvanla yanaşı, həm də ölkəmizin, eləcə də qardaş Türkiyənin müxtəlif elmi müəssisələri və ali məktəblərinin tanınmış alimləri Oruc Həsənlinin elmi fəaliyyətini, şəxsi keyfiyyətlərini elə səmimi və dəqiq ifadələrlə təsvir edirlər ki, oxucu onu yaxından tanıyan bir insan kimi təsəvvürünə gətirir.

Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov isə Oruc Həsənlini belə xarakterizə edir: “Öz zəngin daxili aləmi, saf mənəviyyatı ilə həmişə yüksəkdə dayanırdı. Xırdalanmaq, cılız hisslərlə yaşamaq bu insana tam yad hisslər idi... Oruc müəllim işıqlı, nurlu bir ziyalı idi. Oruc müəllim rəssamlıq sənətini sevən və hər hansı bir tablonu izah və təhlil etməkdə mahir idi”.

Oruc müəllim hamıya örnək olan ziyalı və vətənpərvər alim ömrü yaşayıb. O, elmi fəaliyyətinin ilk günlərindən ömrünün sonuna kimi pedaqogika və psixologiya elminə sədaqətlə xidmət göstərib. Tükənməz enerjisini, istedad və qabiliyyətini yorulmadan təhsil sistemimizə sərf edib. Oruc Həsənli bu gün cismən həyatda olmasa da, onu sevənlərin, dostlarının, həmkarlarının, tələbələrinin, yetirmələrinin və ailəsinin qəlbində yaşayır.

“Şərq qapısı”



# Şəhid ailələrinin Şuşaya səfəri olub

“Cahan Şirkətlər Qrupu”nun və Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin təşkilatçılığı ilə Naxçıvandan olan şəhid ailələrinin 63 üzvü Şuşaya səfər edib.

Avqustun 13-14-də təşkil olunan səfərin əsas məqsədi torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhid olmuş qəhrəmanlarımızın ailələrinə və yaxınlarına Şuşa və digər azad edilmiş torpaqlarımızı tanıtmaq olub.

Səfərdən əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyularaq xatirəsi yad edilib. Ardınca tədbir iştirakçıları Bakı şəhərinə yola düşüb. Hava limanında qarşılanmadan sonra Şuşa səfəri başlayıb.

Səfərin ilk günü, avqustun 13-də şəhid ailələri Şuşa qalasını ziyarət ediblər. Axşam yeməyindən sonra uşaqlar üçün rəsm məşğələsi təşkil olunub, çəkdikləri əsərlər hotelin foyesində sərgilənib və onlara maraqlı kitablar hədiyyə edilib.

Səfərin ikinci günündə iştirakçılar İsa bulağını, Cıdır düzünü, Molla Pənah Vaqifin məqbərəsini və Yuxarı Gövhər Ağa məscidini ziyarət edib.

Bu təşəbbüs şəhid ailələrinə mənəvi dəstək və dövlətin onlara göstərdiyi diqqətin nümayişi kimi qiymətləndirilib.

Bu ziyarət həm vətən uğrunda canından keçmiş qəhrəmanların xatirəsinə ehtiramın ifadəsi, həm də onların ailələri üçün unudulmaz və mənəvi baxımdan dəyərli bir xatirə kimi yadda qalacaq.




# “Jurnalist ömrünün əbədiyyət nəğməsi” adlı kitabın təqdimatı keçirilib

*Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında şəhid jurnalist Məhərrəm İbrahimovun xatirəsinə həsr olunmuş Əsgər İbrahimovun “Jurnalist ömrünün əbədiyyət nəğməsi” adlı kitabının təqdimatı keçirilib.*






Tədbir başlamazdan öncə Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Təqdimatı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Aparatının Mədəniyyət, mədəni irs, incəsənət və təhsil müəssisələri ilə iş şöbəsinin müdiri Pərvin Həsənov açaraq qeyd edib ki, kitab hər bir azərbaycanlı üçün mübarizlik salnaməsidir. Hər kəsə örnək olan igid, vətənpərvər jurnalistlərimizin amalı həmişə Vətən, millət olub. Şəhid jurnalist Məhərrəm İbrahimovun timsalında vətənpərvər övladların həyat hekayəsi bütün dünyaya Vətən sevgisinin nə olduğunu sübut etdi. Qələmini silaha dəyişən mətbuat işçiləri bu gün də vətənpərvərlik missiyalarını layiqincə yerinə yetirirlər.

Kitabın müəllifi, şəhid jurnalist Məhərrəm İbrahimovun qardaşı Əsgər İbrahimov kitab haqqında çıxış edərək bildirib ki, bu kitab yaşadığımız müstəqillik dövrünün olduqca maraqlı və yaddaqalan epizodlarını öz səhifələrində dolğun bir şəkildə canlandırır. Kitab bir reportyorun həyat hekayəsi olmaqla yanaşı, həm də geniş mənada son 20 ilin, o cümlədən 44 günlük Qarabağ savaşının mötəbər salnaməsi və Məhərrəm İbrahimovun tarixə yaradıcılıq əmanətidir. Kitabda Vətən müharibəsində qazanılan zəfərdən sonra Ermənistanın müharibə cinayətləri, mülki əhalini hədəfə alması, işğaldan azad edilmiş ərazilərdə erməni faşistlərinin viran qoyduğu qədim yurd yerlərinin dəhşətli mənzərəsi barədə dolğun materiallar əks olunub.

Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının elmi işlər üzrə direktor müavini Yeganə Səfərova “Sevərək yaşadı, sevilərək xatırlanır” və Kütləvi iş şöbəsinin müdiri Turqay Orucov “Milli mətbuatımızın şəhid jurnalistləri” adlı mövzularla çıxış edərək bildiriblər ki, Məhərrəm İbrahimov İkinci Qarabağ savaşının ilk şəhid jurnalisti olub. Həyatsevər və nikbin, peşəsinə qəlbən bağlı, yüksək vətənpərvərlik hissinə malik Məhərrəm 44 günlük Vətən müharibəsinin ilk günündən cəbhəyanı bölgələrə ezam edilmişdi. O, daim qaynar nöqtələrə üz tutur, hadisələrin məkəzinə can atırdı. 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeninə layiq görülmüş jurnalistin ömür nəğməsi əbədi olaraq yaşadılacaq.

Sonra şəhid jurnalistin ailə üzvləri, yaxınları kitab haqqında öz fikirlərini bildiriblər, şəhidlə bağlı xatirələrini bölüşüblər.

Tədbirin sonunda kitabın müəllifi Əsgər İbrahimov təşkilatçılığa görə təşəkkürünü bildirib və iştirakçılara kitabını hədiyyə edib.



# “Naxçıvanın yetişdirdiyi böyük ədəbi simalarla yanaşı, bizim kimi xırda qələm sahiblərinə də yer verdiyinizə görə sağ olun”

*“Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik,*
*Biz Vətən naminə ölsək, dirilərdən diriyik”.*



Tarix 2025-ci ilin 16 avqustunu göstərir... Bu il Azərbaycanın Xalq şairi, ədəbiyyatşünas və pedaqoq, istiqlal şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyi qeyd olunur.

Mənim uşaqlığım babamın kitab rəflərində başlayıb. O rəflərdə saralmış səhifələr vardı, kiril əlifbası ilə çap olunmuş, qoxusu belə keçmişin nəfəsini daşıyan kitablar... Mikayıl Müşfiq, Tofiq Mütəllibov və başqaları... Və onların arasında həmişə xüsusi yeri olan Bəxtiyar Vahabzadə. Evimizdə hər dəfə söz ədəbiyyata gələndə sanki hələ də şairin öz doğma səsi gəlirdi. O illərdə görkəmli qələm adamlarının Naxçıvana səfərlərindən danışılırdı. Bəxtiyar Vahabzadə, yazıçı Anar və digərləri... Onların əksəriyyətinin ozamankı akademik Yusif Məmmədəliyev adına Pedaqoji İnstitutda tələbələrlə keçirdiyi görüşlərdən söhbət açılardı. Mən uşaq idim, amma təsəvvürümdə həmin danışıqlar, həmin baxışlar, həmin alqışlar var idi.

Bir gün düşündüm: “Görəsən, Bəxtiyar Vahabzadənin Naxçıvanda olduğuna dair izlər haradadır?” İnternetdə axtardım. Sözün düzü, tapmadım. Lakin birdən Naxçıvan Ədəbiyyat Muzeyində gördüyüm bir eksponat yadıma düşdü, şairin öz imzası ilə göndərdiyi avtoqraf. Və qərara aldım: “İz axtarıramsa, onu buradan tapacağam”. Muzeyin direktoru Aləmzər İbrahimovanın köməkliyi ilə bir andaca özümü o keçmişin içində tapdım, muzeyin fondunda qarşıma çıxan fotolar, kitablar, əlyazmalar sanki məni 60-70 il əvvələ apardı.

Fotolara baxdıqca üzümə qəribə bir təbəssüm qonurdu... Elə bil, şair qarşımda dayanmışdı. Bakıdakı şəkillər, amma ən çox da Naxçıvanda qələm dostları ilə çəkilən kadrlar məni ovsunlayırdı. Ən təsirli fotolardan biri 1965-1966-cı illərə aid idi. Möminə xatun türbəsinin önündə dayanmış bir qrup ziyalı – Həsən Mehdiyev, İslam Səfərli, Həsən Seyidbəyli, Rəsul Rza, Xalq yazıçısı Süleyman Rəhimov və Bəxtiyar Vahabzadə... Arxa fonda isə əsrlərin yaddaşını daşıyan türbə. O illərdə türbə yenidən bərpa olunurdu. Və bu il Prezidentin imzaladığı Sərəncamla türbənin bir daha restavrasiya ediləcəyi xəbəri sanki zamanın qapanmayan dairəsi kimi həmin fotonu mənim üçün daha da mənalı edirdi.



Naxçıvana aid fotolar az idi, amma hər biri bir tarix idi. Digər fotoların sirrini isə şairin muzeyə ünvanladığı məktub açırdı. Muzeyin ikinci mərtəbəsində, şüşə vitrinin arxasında nümayiş etdirilən məktubu oxuyarkən bir tərəfdən sətirləri izləyir, digər tərəfdən xəyalımda şəkillər canlanırdı:




*“Hörmətli Firəngiz xanım, salam. Məktubunuzu aldım. Muzeyinizi təbrik edir və ona uğurlar diləyirəm. Naxçıvan bizim gözəl vətənimizin fəxr olunmalı guşələrindən biridir. Orada Ədəbiyyat Muzeyinin olması zəruri idi. Naxçıvanın verdiyi böyük ədəbi simalarla yanaşı, bizim kimi xırda qələm sahiblərinə də yer verdiyinizə görə sağ olun. İstədiyiniz şeylərin hamısını göndərmək imkanı olmadığından, məndən bir kitabımı, iki şeirimin əlyazmasını və üç şəkli qəbul edin (şəkillərin biri Çingiz Aytmatov və Yevgeni Yevtuşenko ilə çəkilib). Rica edirəm, göndərdiklərimin çatıb-çatmadığı barədə yazasınız.”*

**21.07.1986**
***Bəxtiyar”***

Məktub bitdi, amma mənim beynimdəki səhnələr davam edirdi. Başqa fotolarda isə yenidən İslam Səfərli, Bəxtiyar Vahabzadə və Hüseyn Mehdiyev ağaclıq bir məkanda, ayaqüstə, səmimi bir söhbətin içində idilər. Ən önəmli kadr isə Naxçıvan Ədəbiyyat Muzeyinin əvvəlki binasının önündə, qələm dostları ilə çəkilən foto idi. Muzey fondunda Yazıçılar İttifaqının VII Qurultayından fotolar, Rəsul Rza, akademik Əbdülkərim Əlizadə və şairin İraq xatirələrindən görüntülər də vardı. Və əlbəttə ki, dost söhbətlərinin əks olunduğu saysız-hesabsız kadrlar...

Bütün bunların yanında fondun ən qiymətli inciləri isə şairin kitabları idi. “İstiqlal” poeması, “Gülüstan” poeması, “İnsan və zaman” – şeirlər və poemalar toplusu, “Bir baharın qaranquşu” və daha neçə-neçə əsər.

Bu fotolar və səhifələr mənim üçün, sadəcə, muzey eksponatı deyil, həm də bir epoxanın nəfəsi idi. Orada, o şəkillərdə, o məktubda Bəxtiyar Vahabzadə hələ də Naxçıvandadır... Və mən bilirəm ki, onun izi bu torpaqdan heç vaxt silinməyəcək. Və indi illərin o üzündən xatirələrin buraxdığı izlərlə muzeydən çıxarkən başa düşürəm ki, Bəxtiyar Vahabzadə üçün Naxçıvan, sadəcə, səfər yeri deyil, bu torpağın daşına, havasına, insanına hopan bir yaddaş olub. Onun türbə önündə dayanıb çəkdirdiyi foto, dostları ilə söhbətləri, muzeyə ünvanladığı səmimi məktub, bunlar bir xalqın ədəbiyyat yaddaşına vurulan möhür kimidir.



Zaman fotoları saralda bilər, kağızları köhnəldə bilər, amma şairin sözü, nəfəsi, səsi heç vaxt köhnəlmir. Çünki o səs hər dəfə “Vətən” deyəndə, əslində, Naxçıvandan da keçib gəlir. Bəlkə də, gələcək nəsillər bu fotolara baxanda, bu məktubu oxuyanda düşünəcəklər: “Bir şair burada dayanıb, bu küçələrdən keçib, bu torpağın nəfəsini alıb”. Və bu onların da qəlbində Vətən sevgisinin bir parçası olacaq. Bəxtiyar Vahabzadə indi muzey vitrinindəki fotolardan bizə baxır. Baxışlarında isə eyni mesaj var:

*“Biz Vətən məcnunu, el aşiqi,*
*sülh əsgəriyik,*
*Biz Vətən naminə ölsək,*
*dirilərdən diriyik”.*

**✍ Rafiq TƏHMƏZ**

## Naxçıvan televiziyası əməkdaşları üçün peşəkar montaj təlimlərinə start verilib



“Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsi və “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə Naxçıvan televiziyasının əməkdaşları üçün montaj bacarıqlarının inkişafına dair intensiv təlimlərə başlanılıb.

Avqustun 22-dək davam edəcək proqram çərçivəsində, ümumilikdə, 26 nəfər montajçı və qrafikaçı iştirak edir. Təlimlərdə müasir montaj prosesinin bütün mərhələləri, peşəkar proqramlarda effektiv işləmə üsulları, rəng korreksiyası və vizual effektlərin tətbiqi, süni intellektin montaj işlərinə inteqrasiyası, qrafik elementlərin yaradılması və işlənməsi kimi mövzular əhatə olunur.

Sessiyalar fərdi yanaşma prinsipi əsasında keçirilir. Bu hər bir iştirakçının mövcud bacarıqlarına uyğun inkişaf planı üzrə təlim keçməsinə və praktik məşğələlərdə öyrəndiyi bilikləri dərhal tətbiq etməsinə imkan yaradır. Təlimlərin məqsədi, televiziyanın texniki və yaradıcı heyətinin biliklərini günün tələblərinə uyğunlaşdırmaq, efir keyfiyyətini yüksəltmək və vizual məzmun istehsalında innovativ yanaşmaları təşviq etməkdir.

Bu təşəbbüs regionda media sahəsinin davamlı inkişafına, yerli mütəxəssislərin rəqabətqabiliyyətinin artırılmasına və yaradıcı potensialın gücləndirilməsinə mühüm töhfə verəcək.

## NTV-nin “Aktual ekran” verilişinin son buraxılışı Zəngəzur dəhlizinin bir addımlığından tamaşaçılara təqdim edilib

Naxçıvan televiziyasının “Aktual ekran” verilişinin son buraxılışı 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilən tarixi görüşə həsr olunub.

Veriliş bu dəfə simvolik məkan – Ordubad rayonunun Kotam kəndindən, Zəngəzur dəhlizinin bir addımlığından tamaşaçılara təqdim edilib.

Buraxılışda ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri arasında baş tutan mühüm üçtərəfli görüşün detalları diqqətə çatdırılıb. Bu görüş Cənubi Qafqazda uzun illər davam edən gərginliyin aradan qaldırılması və sülhün təmin olunması istiqamətində atılmış tarixi addım kimi dəyərləndirilib.

Verilişdə Prezident İlham Əliyevin diplomatik zəfərləri geniş işıqlandırılıb. ABŞ-nin “Azadlığı Müdafiə Aktı”na 907-ci düzəlişin icrasının dayandırılması haqqında Trampın imzaladığı sənədin mahiyyətindən bəhs edilib və bu qərar Azərbaycan-ABŞ münasibətlərində




yeni mərhələnin başlanğıcı kimi təqdim olunub. Bundan əlavə, tərəflər arasında imzalanan Birgə Bəyannamənin regionun gələcək əməkdaşlıq istiqamətlərini müəyyən edən sənəd olduğu vurğulanıb.

ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı quruma ünvanlanan birgə müraciət də verilişdə ətraflı təhlil edilib. Bu qərar vasitəçilik missiyasında nəticə verməyən formatın rəsmi şəkildə siyasi səhnədən çəkilməsi kimi dəyərləndirilib.

Ən önəmli məqam kimi Zəngəzur dəhlizinin açılması istiqamətində əldə olunan razılaşma qeyd olunub.

Aparıcı Nicat Quliyev məhz dəhlizin bir addımlığından çıxış edərək bu layihənin təkcə Azərbaycanı Naxçıvanla birbaşa əlaqəsinin bərpası deyil, həm də regionun iqtisadi, logistika və siyasi mənzərəsini dəyişdirəcəyini vurğulayıb.

Qeyd edək ki, veriliş boyu ekspert şərhləri, tarixi paralellər və sənədlərin regional güc balansına mümkün təsirləri də tamaşaçılara çatdırılıb.

# Torpaq deyir: “Sən mənə tər ver, mən sənə zər verim”

*Qədim Naxçıvanın ən böyük əkinçilik rayonu olan Şərurda hansı əkin sahəsinə üz tutsaq, orada zəhmətkeş kənd adamlarını görürük; torpağa bağlı insanları. Ömrünü təsadüfi qazanclara deyil, həqiqi zəhmətə bağlayan zəhmət adamlarını. İndi də ilin elə vədəsidir ki, kənd adamının gününün çoxu əkin-biçində keçir. Bu rayonda torpağın dilini bilən zəhmətkeş insanlar çoxdur. Hansı təsərrüfata getsək, orada yayın məhsulunun toplandığına, payız əkini üçün isə hazırlıq görüldüyünə şahid oluruq.*

*Ötən günlərdə rayonun bir neçə kəndində olub zəhmətkeş insanları ilə söhbət etdik.*

Cəlilkənd sakini Yaqub Tağıyevlə söhbətimiz zəhmətlə əkib-becərdiyi əkin sahəsinin kənarında baş tutdu:



– Əlim iş tutandan əkib-becərməklə məşğul olurdum, böyüklərimizdən məsləhətlər alıb 13 hektar torpaqda ailə üzvlərimizin köməyi ilə taxıl əkdim. İlk vaxtlar torpağa bələd olmadığımız üçün bəzən ilboyu çalışsaq da, istədiyimizə nail ola bilmirdik. Lakin ruhdan düşmədik. Torpağa alışdıq, təcrübəmiz artdı. Əbəs yerə atalarımız “Torpaq deyir: “Sən mənə tər ver, mən sənə zər verim”, – deməyiblər. Şükür Allaha, çəkdiyimiz xərcin də, əməyin də qarşılığını ikiqat alırıq. Şəhərlərdə dükan-bazarların məhsullarla dolması, bol ruzi-bərəkət məhz torpaqlarımızın üzümüzə gülməsi sayəsindədir. Bu məhsullar zəhmətdən hasilə gəlir, əhalinin rifah halının yaxşılaşmasına öz töhfəsini verir.

Müsahibim onu da deyir: “Təbiətin bizə bəxş etdiyi ən böyük sərvəti – torpağı sevmək, qayğısına qalmaqla özümüzə yaxşılıq etmiş oluruq. Ailə təsərrüfatları yaratmaq, sahibkarlıqla məşğul olmaq üçün dövlət dəstəyi də yetərincədir. Kim istəsə kredit götürə, lizinq yolu ilə texnika ala bilir. Təsərrüfat suyumuz da boldur. Daim axarlı-baxarlı Arpaçay bizim ərazidən keçir. Gördüyünüz bu sahədə kartof, soğan, taxıl əkmişik. Çəkdiyimiz zəhmətin bəhrəsini toplayıb, yığımı yekunlaşdırıb yerində yenidən şum qaldırdıqdan sonra gübrə vermişik ki, torpaq gücdən düşməsin, əkinə hazır olsun. Torpaq sahələrinin bir hissəsini icarəyə götürmüşəm. Burada 70-dən artıq işçi çalışır. İşçi sayı mövsümə görə dəyişir. Bu il 10 hektar taxıl, 50 hektar kartof, 5 hektar soğan, 0,5 hektar pomidor əkini aparılıb. Taxıl, tərəvəz əkinlərinin ərazisini ildən-ilə artırmağa çalışırıq. Təsərrüfatımız böyüdükcə artıq ailə təsərrüfatından sahibkarlığa addım-addım yaxınlaşırdıq”.

Yaqub onu da bildirir ki, muxtar respublikada ailə təsərrüfatlarının inkişafına yaradılan münbit şəraitdən istifadə edib. İlk olaraq, lizinq yolu ilə bir traktor, kartofəkən, soğançıxaran texnikalar satın alıb. Sonra isə topladıqları məhsulların uzun müddət saxlanılması üçün soyuducu anbar inşa etdirməyə qərar verib. Elə bu məqsədlə 2016-cı ildə Sahibkarlığın İnkişafı Fondundan 50 min manat kredit götürüb. Birinci 600, sonra isə 300 ton tutumu olan soyuducu anbar kompleksi inşa etdirib. Sahibkar onu da əlavə edir ki, soyuducu anbarların yaradılması həm məhsulları qış dövründə istehlakçıya çatdırmağa, həm də ixracı daha da artırmağa imkan verir. Bu anbarların hər biri yeni iş yerlərinin açılması ilə bərabər, həm də əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rola malikdir. Hazırda soyuducu anbarlarda 10 nəfərə yaxın işçi çalışır. Qonşu kəndlərdən də buraya məhsul gətirənlər var.





Digər müsahibim Muraz Məmmədzadə torpağa bağlılığı, zəhmətə sevgini ata-babalarından öyrənib. Torpağı əkib-becərməyi özünün alın yazısı bilib və bununla qürur duyub. Yaşının az olmasına baxmayaraq, torpağın sonsuz səxavətinin şahidi olduqca ona daha çox bağlanıb. O, torpağı əkib-becərdikcə torpaq da onun başını uca edib. Rayonda hamı onu zəhmətkeş bir insan kimi tanıyır. Onunla elə iş başında, rayonun Yuxarı Daşarx kəndində yerləşən əkin sahəsində həmsöhbət oluruq.

Deyir ki, torpaq suya susadığı kimi insanoğlunun zəhmətinə, alın tərinə də möhtacdır. Hər zaman ondan qulluq tələb edir, onu zəhmətə səsləyir. Dünyada halallıq axtaran əliqabarlı insanlar torpağın bu harayına həmişə hay verib, ona üz tutublar. Əkinçilik də digər işlər kimi təcrübə tələb edir. İşlədikcə, torpağın dilini öyrəndikcə daha çox məhsul götürürsən. Kənd təsərrüfatı bitkiləri vaxtında suvarılmadıqda, hətta vaxtından əvvəl və ya normadan artıq suvarıldıqda belə məhsuldarlığa təsir göstərir. O da təcrübəsinə əsaslanaraq torpağı aqrotexniki qaydalara uyğun olaraq əkib-becərməyə çalışır.

Muraz qeyd edir ki, qışda 1,5 hektarda əkdiyi pomidor may ayının sonunda bazara çıxıb. İyun, iyul aylarında əkin sahələrində yetişən tərəvəzləri Şərur və Naxçıvan şəhərindəki bazarda da satıb. Yay şaftalısının da alıcısı çox olub.

Zəhmətkeş torpaq adamı onu da bildirir ki, o, rayonun Cəlilkənd və Mahmudkənd yaşayış məntəqələrinin ərazisində, ümumilikdə, 30 hektar sahədə kartof da əkib. Hazırda kartof yığımı aparılır.

Dərəkənd və Yuxarı Daşarx kəndlərinə şaftalı bağlarındakı payız hülüsü (Şərurda şaftalının bu növünə hülü deyilir) beş-on günə tam yetişib bazara çıxarılacaq. Müsahibim bildirir ki, yazda əkilən məhsul yayda toplanır və payız əkininin də bünövrəsini qoyurlar.

Müsahiblərimlə söhbətdən belə qənaətə gəlmək olar ki, zəhmət çəkən hər kəs yaxşı yaşaya, dolana bilər. Belə bir el misalı var: “Torpaqda izin olsun ki, süfrədə üzün olsun”. Çünki torpaq adamı naümid buraxmaz. Və ən əsası torpaq bu gün Naxçıvan kəndlisi üçün ən yaxşı iş yerinə çevrilib. Bacarıb dövlətimizin yaratdığı bu şəraitdən istifadə edənlər öz gün-güzəranlarını qurmaqla bərabər muxtar respublikada kənd təsərrüfatının inkişafına töhfələrini verirlər.

## Su təhlükəsizliyinin təmin olunması mühüm əhəmiyyət daşıyır

*Son illər Naxçıvanda su ehtiyatlarının azalması təkcə kənd təsərrüfatı deyil, həm də içməli su təminatında ciddi narahatlıq doğurur. İqlim dəyişikliyi, yağıntıların azalması, su itkiləri və düzgün idarə olunmayan infrastruktur bu problemi daha da dərinləşdirir. Əkin sahələrinin suvarılması, əhalinin içməli su ilə təminatı və alternativ mənbələrin axtarışı artıq gündəmin prioritet mövzularındandır. Məhz bu suallara aydınlıq gətirmək və mövcud vəziyyəti dəqiq qiymətləndirmək üçün Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəis müavini Emil Səfərovla söhbətləşdik:*

***– Emil müəllim, hazırda Naxçıvandakı əsas su anbarlarından olan Araz, Uzunoba, Bənəniyar, Arpaçay, Heydər Əliyev və digər su anbarlarının doluluq səviyyəsi necədir və bu göstəricilər əvvəlki illərlə müqayisədə nə dərəcədə dəyişib?***

– Ümumilikdə, muxtar respublikada irili-xırdalı otuza yaxın su anbarı mövcuddur. Onların ümumi layihə gücü 301 milyon kubmetr təşkil edir, bugünkü gündə anbarlarda qalan suyun miqdarı isə 125 milyon kubmetrdir. Ötən il həmin göstərici 235 milyon kubmetr idi. Burada adıçəkilən Araz su anbarının layihə gücü 1 milyard 254 milyon kubmetrdir. Bu anbarın su ehtiyatından Azərbaycan Respublikası və İran İslam Respublikası tərəfindən müştərək istifadə olunur. Ümumilikdə, Araz çayının üzərində müxtəlif su anbarları var: Araz su anbarı, Qız qalası su anbarı və bu yaxınlarda istifadəsi nəzərdə tutulan Xudafərin su anbarıdır ki, onun da tutumu 1 milyard 540 milyon kubmetrdir. Araz su anbarında kifayət qədər su ehtiyatı olmasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası ərazisində bu sudan istifadə çox aşağı səviyyədədir. Düzdür, mexaniki suvarma əlavə xərc tələb edən suvarma metodudur, lakin mövcud vəziyyətdə digər alternativ yoxdur. Bununla bağlı bir neçə layihələrimiz vardır ki, onlardan biri də Araz su anbarından Heydər Əliyev su anbarına suyun transferini etməkdir.

Layihə gücü 150 milyon kubmetr olan Arpaçay su anbarında hazırda 86 milyon kubmetr, layihə gücü 100 milyon kubmetr olan Heydər Əliyev su anbarında da 26 milyon kubmetr su mövcuddur. Heydər Əliyev su anbarında olan ümumi su ilə Naxçıvan şəhərinin və Babək rayonunun şəhərətrafı bəzi kəndlərinin bütün içməli su ehtiyatı ödənilir. Eyni zamanda 23 min hektar ərazinin suvarılması da Heydər Əliyev su anbarının hesabına aparılır. İstifadəyə verildiyi müddətdən bu yana Heydər Əliyev su anbarı cəmi dörd dəfə tam dolub. 23 min hektar ərazini bir neçə dəfə suvarmaq üçün isə hər il, təxmini, 60-70 milyon kubmetr su ehtiyatı lazımdır. Bu təkcə əkin üçün nəzərdə tutulan miqdardır. Bu il isə faktiki olaraq, təxminə, 31 milyon kubmetr su ehtiyatı əkin üçün toplana bilib. Həmin suyun toplana bilməsinin səbəbi isə keçən il anbarın dolması olub. Anbara hazırda su daxilolması sıfır dərəcəsindədir. Bundan əlavə, isə buxarlanma da mövcuddur. Hazırda kütləvi biçin dövrünün bitməsi ilə əlaqədar olaraq yalnız bostan əkinləri və yaşıllıq sahələrinin suvarılması üçün su ehtiyatının ayrılması nəzərdə tutulub. Su həcminin anbarlarda paylanması da qeyri-bərabərdir. Məsələn, bu gün Arpaçay su anbarındakı 86 milyon kubmetr həcmində su Şərur və Sədərək rayonlarının tam Kəngərli rayonunun isə bir hissəsinin su təminatını qarşılaya bilər, lakin digər anbarlardakı suyun miqdarı isə çox aşağı olduğundan onların əhatə etdikləri ərazilərdə su təminatı çox aşağı səviyyədədir. Buna görə də biz gələcək layihələrimizdə suların inteqrasiyalı idarə olunması üçün layihələr nəzərdə tutmuşuq.



***– Alternativ su mənbələrinin (artezian quyuları, yağış sularının yığılması və sair) istifadəsi ilə bağlı hansı addımlar atılır və bu istiqamətdə konkret layihələr varmı?***

– Yağış sularının təkrar istifadə olunması üçün hövzələr üzərində su anbarları tikilir, həmçinin səhərlərə düşən yağıntılar bu məqsəd üçün inşa edilmiş xüsusi suötürücü qurğularla su anbarlarına yönləndirilir. Bu tip layihələrin gələcəkdə Naxçıvan Muxtar Respublikası ərazisində tətbiqi nəzərdə tutulur. Hazırda alternativ mənbələr kimi yeraltı su qaynaqlarından, artezian quyularından xüsusən quraqlıq dövrlərdə aktiv istifadə olunur. Təəssüf ki, bu gün yeraltı su ehtiyatlarından muxtar respublika ərazisində sistemli şəkildə istifadə olunmadığı hallarına da rast gəlinir. Belə ki, bəzi ərazilərdə subartezian quyularının icazəsiz və plansız şəkildə qazılması nəticəsində yeraltı suların təbii dinamikası pozulur. Qeyd olunmalıdır ki, yeraltı su ehtiyatları yalnız alternativ su mənbələri mövcud olmadıqda və zəruri hallarda istismar edilməlidir. Ümumiyyətlə, həm yeraltı, həm də yerüstü su ehtiyatlarının idarə olunması mövcud qanunvericiliyə əsasən yalnız Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən həyata keçirilə bilər. Bu baxımdan su ehtiyatlarından istifadə zamanı qanunvericiliyin tələblərinə əməl olunması, həm təbii balansın qorunması, həm də gələcək nəsillər üçün su təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

***– Son olaraq su ehtiyatının azaldığı bir dövrdə sudan qənaətlə istifadə necə aparılmalıdır?***

– Bu gün sudan səmərəli və qənaətli istifadə edilməsi ən çox diqqət çəkməli olduğumuz mövzudur. Su yoxdursa, həyat da yoxdur. Bunu mütləq şəkildə yadda saxlamaq lazımdır. Bizim hər birimiz su istifadəçisiyik. Su ehtiyatlarının qorunması təkcə bu sahəyə məsul qurumların deyil, hər kəsin məsuliyyətində olmalıdır. Cari ildə bu sahədə yaşanan problemlərdən dolayı vətəndaşlar teztez müraciət edirlər. Biz vətəndaşların şikayət və ərizələrini cavablayanda da, görüş keçirəndə də izah etməyə çalışırıq ki, “su vermirsiniz” ifadəsi doğru deyil. Bu gün muxtar respublikada hər bir vətəndaşın içməli su təminatı tam ödənilir. Suvarma su təminatının tam ödənilməsi üçün mütəmadi işlər görülür, su ehtiyatlarının hazırkı vəziyyətini nəzərə alıb, suyun verilməsi nəzarətdə saxlanılır. Sudan səmərəli istifadə isə hər bir istifadəçinin öz əlindədir. Həm məişətdə, həm təsərrüfatda sudan səmərəli istifadə mümkündür. Bu məqsədlə idarəmiz tərəfindən mütəmadi olaraq maarifləndirmə işləri görülür.

***– Suallarımıza ətraflı cavab verdiyiniz üçün təşəkkür edirik.***

**“Şərq qapısı”**



# Sədərəyin zəhmətkeş xanımlarının qış tədarükü

Xatırlayıram, mən balaca olanda babamgilin həyətinə qohum-qonşular yığışar, qış üçün tədarük görülərdi. İlin bu fəsli yaxınlaşanda o illərin xatirələri gözlərimin önündə canlanır. Sevindirici haldır ki, gözəl adət-ənənələrimiz bu gün də yaşadılır. Bu ənənələrin əsas daşıyıcıları isə zəhmətkeş xanımlarımızdır. Onlar ilin hər fəslində ailələrinin rifahı üçün çalışır, zəhmətlə qış aylarını qarşılayırlar.

Sədərək rayonunun Dəmirçi kəndində yaşayan zəhmətkeş və qonaqpərvər Cabbarovlar ailəsi yayın istisində gələcək soyuq günlərin qeydinə qalmaqdadır. Onlar illərdir, davam etdirdikləri ənənəyə sadiq qalaraq bu dəfə də qış ayları üçün tədarük hazırlıqlarına başlayıblar. Ailə üzvlərinin birgə hazırlıq prosesində biz də yaxından iştirak etdik. Məlumat üçün bildirim ki, Dəmirçi kəndində bu ənənə birlik içində yaşadılır. Cabbarovlar ailəsinin ağbirçəyi Tahirə xanım bizə gördükləri hazırlıqlardan danışdı. Yaxın qonşu xanımlar da bu işə kömək üçün gəlmişdilər. Ocaq başında qaynayan gilas və ərik mürəbbəsinin ətri bütün həyətə yayılmışdı. “Ərik mürəbbəsinin hazırlanması belə olur”, – deyən Tahirə xaladan öyrənirik ki, əriklər əvvəlcədən axşamdan soyulur, sodalı suda 1-2 saat saxlanılır. Sonra yuyulub içərisinə tum əvəzinə dənə qoyulur (istəyə görə cəviz və ya badam da əlavə edilə bilər). Əriklər qaynar şərbətə əlavə













olunaraq, təxminən, 30 dəqiqə bişirilir. Əzilməməsi üçün bişirmə zamanı ehtiyatlı olmaq lazım olduğunu vurğulayan müsahibimiz əlavə edir ki, daha sonra mürəbbə 3 gün ərzində, hər gün 3 dəfə 10 dəqiqə olmaqla yenidən qaynadılır.

Beləliklə, ərik qış üçün həm ləzzətli, həm də faydalı tədarük kimi hazır olur. Bu mürəbbələr həm süfrəyə gözəllik qatır, həm də qışın soyuğunda yay ləzzətini evə gətirir.

Hər bölgənin özünəməxsus dadı və süfrə ənənəsi var. Sədərəyin məşhur “tərhalva”sı isə fərqli ləzzəti ilə seçilir. Cabbarovlar ailəsinin qonşuluğunda yaşayan 65 yaşlı Süreyya nənə “tərhalva”nın hazırlanma sirlərini bizimlə bölüşür:

“Tərhalva”nın hazırlanması üçün 1 litr suya, təxminən, bir stəkan şəkər tozu əlavə olunur, qarışdırıla-qarışdırıla bişirilir. Şəkər az əlavə olunur, əsas dadı verən isə yağdır. Xüsusilə kərə yağının ətri və tamı bu yeməyə fərqli ləzzət verir. Un yağda qovrularaq qızılı rəng alır. Bu mərhələ olduqca diqqət tələb edir. Halva nəfis dadı və doyumluluğu ilə seçilir. İllərdir ki, bu yemək sədərəklilərin sevimli süfrə ləzzəti olub”.

Biz qonşulardan müsahibələrimizi alan zaman altı uşaq anası olan Dürdanə xanımın bişirdiyi təndir çörəyinin ətri də uzaqdan duyulurdu. Yanına yaxınlaşanda öyrəndik ki, o bu işi davamlı olaraq böyük sevgi ilə görür. İşin sonunda bu bacarıqlı xanımlar süfrə başına toplaşaraq zəhmətlə hazırladıqları nemətlərin dadına baxırlar. Biz də yoldaşlarımızla birgə “Yolçu yolunda gərək”, – deyib, Sədərəyin qonaqpərvər sakinləri ilə sağollaşır, növbəti ünvanımıza doğru yola düşürük.

Bu gün sevgi ilə hazırlanan yeməklər qış aylarında təşrif buyuran qonaqlar üçün süfrənin ən ləziz nemətləri sayılır.

**Bülbül RÖVŞƏNQIZI**

# DÜNYA xəbərləri

## “Erin” tropik fırtınası Atlantik okeanında builki ilk qasırğa olacaq

Atlantik okeanında yaranan “Erin” tropik fırtınasının cümə axşamına qədər mövsümün ilk qasırğası olacağı gözlənilir.

Şənbə günü 3-cü kateqoriyaya kimi yüksələcək qasırğanın ABŞ-yə birbaşa təsir etməyəcəyi, Puerto Riko daxil olmaqla Karib adalarını əhatə edəcəyi proqnozlaşdırılır.

Gələn həftə “Erin” qasırğasının Şimala doğru hərəkətə başlaması ehtimal edilir. Lakin sinoptiklərin fikrincə, onun ABŞ sahillərinə daxil olacağını demək hələ tezdir.

## Avstraliya sahillərində qədim balina növünün qalıqları aşkarlanıb

Avstraliya sahillərində iti dişləri və böyük gözləri olan qədim balina növünün qalıqları tapılıb.

Qalıqlar Viktoriya ştatının Surf Koast bölgəsində aşkar edilib. Bu balinaya 2019-cu ildə onun fosil parçalarını aşkarlayan Viktoriya sakini Ross Dullardın şərəfinə “Janjucetus dullardi” adı verilib.

Bildirilib ki, “Janjucetus dullardi”, təxminən, 26 milyon il bundan əvvəl mövcud olub.

Balina barədə “Zoological Journal of the Linnean Society” elmi jurnalında məlumat dərc edilib.

## Arxeoloqlar Peruda təqribən 3 min il əvvəl qurban edilən insanların qalıqlarını tapıblar

Perunun şimal sahillərindəki qum təpələrində araşdırma aparan arxeoloqlar qurban edildiyi güman edilən 14 kişi və qadının 3000 illik qalıqlarını aşkar ediblər.

Skeletlər qumun düz altında yatıb, sümükləri Limadan, təxminən, 675 kilometr şimalda yerləşən La Libertad bölgəsindəki çimərliyin yaxınlığında əsrlər boyu küləyin təsiri ilə çöküntü ilə yastılaşıb. Bir neçə cəsəd üzüaşağı, əlləri arxada bağlanmış halda olub və yanlarında heç bir keramika, toxuculuq və ya metal əşyalar tapılmayıb. Bu, alimlərə dəfn mərasimini yaxınlıqdakı müqəddəs memarlığı tədqiq etmək üçün nəzərdə tutulmuş ritual qətlin tək epizodu kimi şərh etməyə imkan verib.

Qəbirlər, təxminən, eramızdan əvvəl 1500-500-cü illər arasında vadiləri və sahil düzənliklərini işğal edən Kupisnike mədəniyyəti ilə əlaqəli bir məbədlə həmsərhəddir. Kupisnike dövrünün memarları kərpic məbədlər və pilləli piramidalar tikirdi və onların saxsı məmulatları alimləri inklərdən əvvəl mövcud olan inanc sistemləri haqqında məlumatlandırmağa davam edir.

Tapıntı Peruda artan arxeoloji kəşflər siyahısına daxil edilib. İyun ayında qaz şəbəkəsi işçiləri Limanın Puente Piedra rayonunda boru çəkərkən yaşı 900-dən çox olan mumyalanmış qadın qalıqları aşkarlamışdılar. Keçən ay 1000-1200 il əvvələ aid qəbiristanlıqda əlavə insan sümükləri tapılmışdı. Bu cür epizodlar La Libertaddakı Kupisnike məzarlığı ilə birlikdə Perunun şəhər və kənd mənzərələrinin altındakı six mədəni təbəqələri üzə çıxarır.

# Atasının izi ilə gedən Fatimə Bağırzadə qızıl medal qazandı

Ötən günlərdə Türkiyənin Rizə şəhərindəki Yenişehir İdman Salonunda keçirilən “Karadeniz və Hazar Ülkeleri Karate Şampiyonası” adlı yarışda Naxçıvan Muxtar Respublikasından 3 idmançı iştirak edib. Onlar arasında Fatimə Bağırzadə bütün rəqiblərinə qalib gələrək çempion olub. Biz də Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin 6-cı sinif şagirdi Fatimə ilə redaksiyamızda görüşüb təəssüratlarını öyrəndik. O bildirdi ki, beş yaşından karate ilə məşğul olmağa başlayıb: “Bu idman növünə marağımın əsas səbəbi atamın karateçi olması və onun qazandığı diplomlar, medallar olub. Artıq bir neçə ildir ki, həm respublika daxili, həm də beynəlxalq turnir və çempionatlarda uğurla iştirak edir, qalib oluram. Hər yarışa gündəlik məşqlərlə, döyüşlərimi təhlil edərək və səhvlərim üzərində işləyərək ciddi şəkildə hazırlaşıram. Döyüş zamanı əsas üstünlüyüm ayaqla vurulan zərbələrdir. Yarışlardan əvvəl müəllimim mənə əvvəlki döyüş videolarımı izlədərək həm texniki, həm də psixoloji baxımdan dəstək olur. Qeyd edim ki, həm müəllimim, həm də şəxsi məşqçim uşaqlıqdan bu günə kimi atam Tariyel Bağırov olubdur. Məktəbdə də dərslərimi yaxşı oxuyuram. Nəticələrimə görə, şəklim məktəbin şərəf lövhəsində yer alıb. Sinif rəhbərim və müəllimlərim məndən böyük uğurlar gözləyir və daim motivasiya verirlər”.

Gələcək hədəflərindən danışan Fatimə bildirdi ki, məqsədi dünya və Avropa çempionu olmaqdır. O, həmyaşıdlarına tövsiyə edir ki, idmanda uğur qazanmaq istəyirlərsə, yorulmadan, əzmlə və həvəslə məşq etsinlər. Bu zəhmətin bəhrəsini mütləq görəcəklər. Uğurun əsas sirri yüksək əzmkarlıq, döyüş ruhu və intizamdır. Qürurverici məqamlardan biri də odur ki, Fatimə 9 yaşında dünya karatesinin əfsanəsi olan Sensei Hitoşi Kasuyanın seminarında iştirak edib və 1-ci dan qara kəmər ustası dərəcəsinə layiq görülüb. Hazırda 2-ci dan qara kəmər sahibidir.




Son uğurundan danışan müsahibimiz vurğuladı: “Türkiyədə keçirilmiş Qara Dəniz və Xəzər Dənizi ölkələri çempionatına 10-11 yaş, -50 kq çəki dərəcəsində iştirak edərək bütün rəqiblərimə qalib gəlib çempion oldum və Azərbaycan yığmasına yeganə qızıl medalı qazandırdım. Hazırda Naxçıvan Karate Klubunun idmançısıyam və məşqlərimi atam Tariyel Bağırovun rəhbərliyi altında davam etdirirəm”.

Biz də Fatiməni təbrik edir, bu yolda uğurlar arzulayırıq.

# “Qarabağ” Çempionlar Liqasının pley-off mərhələsinə yüksəlib



UEFA Çempionlar Liqasının III təsnifat mərhələsində Bakıda “Qarabağ” və “Şkendiya” komandaları arasında keçirilən cavab oyunu başa çatıb.

Tofiq Bəhramov adına Respublika Stadionunda təşkil edilən görüş Ağdam təmsilçisinin 5:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Qolları Kadi Borges, Nəriman Axundzadə, Marko Yankoviç və Leandro Andrade vurublar. Digər qolu isə rəqib öz qapısından keçirib. “Şkendiya”nın həyətində yeganə qola Fabris Tamba imza atıb. Bununla da “Qarabağ” Çempionlar Liqasının pley-off mərhələsinə vəsiqə qazanıb.

Matçı niderlandlı FIFA referisi Denni Makkeli idarə edib. Komandalar arasında ilk matç Ağdam təmsilçisinin 1:0 hesablı qələbəsi ilə yekunlaşmışdı.

Qeyd edək ki, Qurban Qurbanovun kollektivi pley-off mərhələsində “Ludoqorets” (Bolqarıstan) – “Ferensvaroş” (Macarıstan) duelinin güclüsü ilə qarşılaşacaq.

## İtmişdir

Babək rayonu Qahab kəndində Mirzəyev Fətəli Əziz oğlu və digərlərinin adına olan 2265 inventar nömrəli fərdi yaşayış evinə dair texniki pasport itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Atabəylər məhəlləsi bina 1, mənzil 33 ünvanında Nuriyev Yusif Hacı oğlunun adına olan evin 12235 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kənd sakini Hüseynov Cahandar Yunis oğlunun adına olan evin 17179 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Payız kənd sakini Həsənəliyev Ruslan Nurəddin oğlunun adına olan SQ-0027802 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini İmanov Tural Mais oğlunun adına olan AD-0055557 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Daşarx kənd sakini Əliyev Dərdayıl Cəbrayıl oğlunun adına olan JN-148$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi, döngə 4, ev 4 ünvanında Abbasov Məmməd Abbas oğlunun adına olan evin 4271 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Vəliyev İbrahim Hüseyn oğlunun adına olan Ordubad şəhəri Q.Babayev küçəsində yerləşən fərdi yaşayış evinin 806 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Aşağı Buzqov kənd sakini Eyvazov Ağanəcəf Qəhraman oğlunun adına olan JN-144$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Nizami küçəsi 41 ünvanında Hüseyn Orucəliyevə və “Qızıldağ” MMC-yə məxsus qeyri-yaşayış obyektlərinin sənədləri itdiyindən etibarsız sayılır.

***

Babək rayonu Vayxır kəndində Əsgərov Abbasəli Qulu oğlunun adına olan evin 17 noyabr 2011-ci tarixli, 600 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu Zeyvə kəndində yaşamış Tağıyev Yaqub Mustafa oğluna məxsus JN-1300 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini Allahverdiyeva Tellər Hüseyn qızının adına olan 776$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Tumaslı kənd sakini Əhmədov Mahir Hüseyn oğlunun adına olan JN-306$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Kırna kəndində yaşamış Əliyev Cəlil Rzaqulu oğluna məxsus JN-230$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor müavini:
MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 215

Nömrəyə məsul: Ramiyə Əkbərova, Rafiq Təhməzov, Türkanə Əsədova
Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.